

Milli azadlıqdan şirin nemət yoxdur!

# Türkiyənin bütün uğurları bizi də öz uğurlarımız qədər sevindirir və ruhlandırır



Bax səh. 2


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

30 oktyabr 2024-cü il, çərşənbə

№ 200 (6786)

Qiyməti 60 qəpik


İlham Əliyev
@azpresident

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vecnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

3:00 PM · Oct 30, 2020 · Twitter for iPhone

## Zəfərə 10 gün qalırdı...

### Vətən müharibəsinin 34-cü günü

Bax səh. 2



## Sülhün bir addımlığında...

Bax səh. 2

# Dünya azərbaycanlıları Avropa Parlamentindən ədalət tələb edir

Bax səh. 5



## Milli Məclisin iclasında...

Bax səh. 3

## Azad edilmiş ərazilərdə etibarlı su infrastrukturları yaradılır

Bax səh. 4



## Təkqütblükdən çoxqütblüyə...

Bax səh. 3

## İqlim dəyişikliyinə qarşı...

Son illərdə qlobal iqlim fəsadlarının ətraf mühitə təsirlərinin güclənməsi bir çox iqtisadi sahələrə, o cümlədən kənd təsərrüfatına ciddi ziyanlar vurmaqdadır. İqlim dəyişikliyi səbəbindən suvarma suyunun çatışmazlığı, quraqlıq, yüksək temperatur və yağıntıların azalması baş verir ki, bu da məhsul istehsalında riskləri hər il artırır. BMT-nin 2021-ci ildə dərc etdiyi hesabata əsasən, ekoloji problemlərin yaxın onilliklərdə artacağı, kənd təsərrüfatı, iqtisadiyyat, və digər sahələrə mənfi təsirlərin dərin xarakter alacağı ehtimal olunur. Bu baxımdan onlardan biri - nüvə texnologiyaları quraqlığa, şoranlığa, xəstəliklərə qarşı dözümlü olan yeni bitki, xüsusilə də pambıq və taxıl sortlarının yaradılmasında ən təsirli mexanizmlərdən biri hesab olunur. Hətta bir çox ölkələr hazırda nüvə texnologiyalarını iqtisadiyyatın və sənayenin innovasiyalaşmasına, startup yönümlü layihələrə də cəlb etməyi düşünür.

Azərbaycan hökuməti də qlobal iqlim çağırışlarına həssaslıqla yanaşaraq "yaşıl kənd təsərrüfatı"na dəstək üzrə uzunmüddətli Birgə Fəaliyyət Proqramı layihəsi hazırlayıb. Layihədə kənd təsərrüfatı fəaliyyətinin ətraf mühitə mənfi təsirlərinin yumşaldılması, istixana qazlarının azaldılması, aqrobağların salınması, su, torpaq və meşə ehtiyatlarından səmərəli istifadə, biomüxtəlifliyin, ekosistemlərin qorunması...

Bax səh. 4

## COP29 ərəfəsində...

Ölkəmizin beynəlxalq səviyyədə mövqeyini gücləndirməsi, iqtisadiyyatımızın inkişafı və müstəqil siyasət yürütməsi Qərb dairələrində narahatlıq yaradır. Xüsusilə, COP29 kimi mühüm bir beynəlxalq tədbirin Bakıda keçirilməsi Azərbaycana qarşı informasiya müharibəsini genişləndirmək cəhdlərini artıq açıq şəkildə sübut edir. Azərbaycana qarşı sistemli bir informasiya müharibəsi aparılır. Bu müharibənin məqsədi yalnız Azərbaycanın beynəlxalq nüfuzunu zədələmək deyil, eyni zamanda, ölkənin enerji resurslarına çıxışını məhdudlaşdırmaqdır.

Müasir dövrdə informasiyanın əldə edilməsi, yayılması çox rahatdır. Lakin yayılan məlumatların çoxu da dezinformasiya olur. Cəmiyyəti dezinformasiyadan qorumaq lazımdır. Vətən müharibəsindən sonra Azərbaycanı gözü götürməyən qüvvələr məqsədli şəkildə sosial şəbəkələrdə dezinformasiyalar yayırdı. Paytaxtımızda keçirilməsinə sayılı günlər qalmış COP29 kimi tədbirin keçirilməsi ilə bağlı da müxtəlif platformalarda dezinformasiyalar yayılır. Belə bir məqamda ictimai və dövlət maraqlarımızın qorunması aktuallıq kəsb edən məsələlərdəndir.

Mövzu barədə fikirlərini bölüşən millət vəkili Azər Badamov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, COP29 kimi mötəbər tədbirə hazırlıq ərəfəsində ölkəmizə qarşı müxtəlif siyasi dairələrdən edilən hücumlar bizi qarşımızda duran hədəflərdən yayındırmaq məqsədi daşıyır. Məsələn, Avropa Parlamentinin...

Bax səh. 5

## Sağlamlıq turizmində imkanlarımız...

Bu gün dünya miqyasında sağlamlıq turizminə tələbat artmaqdadır. Bunun əsas səbəbləri insanların keyfiyyətli tibbi xidmətlərə əlçatanlığının təmin olunması, sağlamlıq turizminin müalicə ilə yanaşı, fiziki və əqli yorğunluğun bərpası ilə bağlı xidmətləri yerinə yetirməsidir. Qlobal miqyasda sağlamlıq xidmətlərinin turizm sənayesində payı 10 faizdən çoxdur.

Ölkəmizdə də mövcud olan faydalı, zəngin mineroloji və digər müxtəlif müalicəvi keyfiyyətlərə malik olan təbii resurslar kifayət qədər çoxdur. Bir sözlə, sağlamlıq turizminin inkişafı üçün təbii ehtiyatlarımıza dair hər şey var. Naftalanın müalicəvi nefti, Naxçıvanın duz mağaraları, Abşeron göllərinin müalicəvi palçıq və suları, Lənkəranın, Gədəbəyin mineral suları...

Azərbaycanda turizmin digər sahələri kimi, sağlamlıq turizminin inkişafı ilə bağlı da mühüm tədbirlər həyata keçirilir. Buna misal olaraq dövlət tədbirlərini, ölkə başçısının imzaladığı sərəncamları, dövlət proqramlarını qeyd edə bilərik. Ötən gün Şuşada "Azərbaycan sağlamlıq turizmi: inkişaf imkanları" mövzusunda konfrans keçirilib. Dövlət Turizm Agentliyi tərəfindən keçirilən konfransda Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliklərinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Səhiyyə Nazirliyinin rəsmiləri, Azərbaycandan və bir sıra...

Bax səh. 6

## Son 36 ildə ilk dəfə...

ABŞ-da keçiriləcək prezident seçkilərinə bir həftə qalmış namizədlər son görüşlərini keçirirlər. Respublikaçıların namizədi Tramp son görüşlərini mərkəz ştatlara yönləndirib - eks-prezident Nyu-Yorkda izdihamlı mitinq keçirib. Tramp Manhettenin mərkəzində yerləşən məşhur Madison Square Garden arenasında baş tutan mitinqdə çıxış edərək bildirib ki, seçkilərdə qalib gələcəyi təqdirdə dünya tarixində ən böyük iqtisadiyyatı quracaq: "Son prezidentlik dönəmimdə də belə idi - biz inflyasiyaya tez bir zamanda qalib gələrək, sadəcə olaraq, Amerikanı yenidən əlverişli hala gətirəcəyik". Mitinqdə, həmçinin seçkidən kənarda qalan və Trampı dəstəkləmiş prezidentliyə keçmiş müstəqil namizəd Robert Kennedi, eləcə də Vladimir Putindən müsahibə alan siyasi şərhçi -jurnalist Taker Karlson da çıxış ediblər. Qeyd edək ki, Nyu-York Demokratlar Partiyasının "qalası" hesab olunur - bu şəhərdə respublikaçı namizədin sonuncu dəfə dəstəklənməsi 1984-cü ilə təsadüf edir. Bununla belə, "ikinci paytaxt" Tramp üçün də doğmadır - o, biznesinə burada başlayıb və hələ də onun qərargahı olan "Trump Tower"i məhz Nyu-Yorkda inşa etdirib.

Bu arada namizədlərə verilən dəstəklər davam edir. Bilindiyi kimi, Trampı dəstəkləyənlər arasında daha çox milyarderlər "gözə dəyir". Respublikaçı namizədi 49 milyarder dəstəkləyir. "Forbes" yazıb ki, Tramp əsasən...

Bax səh. 7

## Yeni Kaledoniyanın azadlıq istəyi niyə eşidilmir?



## Paris yenə ənənəvi ampluasında...

Bax səh. 7

Bax səh. 6



# Türkiyənin bütün uğurları bizi də öz uğurlarımız qədər sevindirir və ruhlandırır

## Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,

Əziz Qardaşım,

29 Oktyabr - Respublika Günü münasibətilə Sizə və Sizin simanızda qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Fəxrlə qeyd etmək istərdim ki, Türkiyə Respublikası tarixinin ikinci yüzilliyinə siyasi, iqtisadi, hərbi və digər hər bir cəhətdən qüdrətli, qabaqcıl və sabit, beynəlxalq aləmdə yüksək nüfuz və etimad qazanmış, qlobal məsələlərdə söz sahibi olan güclü ölkə olaraq qədəm basmışdır. Bütün bu möhtəşəm nailiyyətlərin əldə olunması məhz Sizin uzaqgörən və müdrik rəhbərliyiniz altında aparılan siyasət və gərgin əməyiniz nəticəsində mümkün olmuşdur.

Dünyada güc mərkəzinə çevrilmiş qüdrətli Türkiyənin bütün uğurları bizi də öz uğurlarımız qədər sevindirir və ruhlandırır. Bu gün Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək zirvədə olmasından, sarsılmaz qardaşlığımızdan böyük fərəh hissi duyuruq. Dinamik və fəal inkişaf edən, regional əməkdaşlığın onurğa sütununu təşkil edən müstəsna dövlətlərarası əlaqələrimiz bölgədə inkişafa, sülhə və təhlükəsizliyə böyük töhfə verməklə yanaşı bütün Avrasiya üçün önəmli amil rolunu oynayır.

İnanıram ki, ortaq tariximizdən, zəngin milli-mənəvi dəyərlərimizdən, xalqlarımızın qardaşlığı və birliyindən güc alan Azərbaycan-Türkiyə strateji müttəfiqliyi bundan sonra da birgə səylərimizlə "Bir millət iki dövlət" prinsipinə uyğun olaraq daha da dərinləşəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, qardaş Türkiyə Respublikasına və xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

Hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

# Zəfərə 10 gün qalırdı...




2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.

**Vətən müharibəsinin 34-cü günü 30.10.2020**

• Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvəlidli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vejnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad edib. Bu barədə Prezident İlham Əliyev özünün tviter hesabında bildirib.

• Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum cəhdlərinin qarşısı qətiyyətlə alınıb. Döyüş texnikası və canlı qüvvə baxımından xeyli sayda itki verən Ermənistan ordusunun bölmələri geri çəkilməyə məcbur edilib. Cəbhənin müxtəlif istiqamətlərində işğalçı ordunun xeyli sayda canlı qüvvəsi, iki Su-25 təyyarəsi, üç T-72 tankı, bir PDM, iki "Smerç" və bir BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemləri, 10 müxtəlif tipli topu, iki "Qvozdika" özüyeriyən haubitsası, bir "Osa" ZRK, bir P-18 radiolokasiya stansiyası, dörd avtomobil texnikası sıradan çıxarılıb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad olunan Xudafərin kəndindən foto və videoreportaj yayıb.

• Bölmələrimiz Bərdəni atəşə tutan Ermənistan silahlı qüvvələrinə məxsus bir "Smerç" yaylım atəşli reaktiv sistemini, Bərdə və Tərtər şəhərlərinə atəş açan iki "Smerç" sistemini, bir "Osa" zenit-raket kompleksini məhv ediblər.

• Cəbrayıl rayonunun erməni işğalından azad edilmiş ərazilərindən yeni görüntülər - AZƏRTAC-ın foto və videoreportajı.

• Azərbaycan Ordusunun bölmələri düşmənin



qüvvə və döyüş vasitələrini, raket-artilleriya silahları anbarını dəqiq zərbələrlə məhv edib.

• Ermənistan silahlı qüvvələrinin törətdiyi cinayət faktları üzrə 52 cinayət işi başlanıb.

Azərbaycan Respublikasının Dövlət Bayrağı işğaldan azad olunmuş Cəbrayıl və Zəngilan rayonları ərazisindəki sərhəd zastavaları üzərində ucaldılıb və onlar xidməti-döyüş fəaliyyətinə başlayıb.

# Sülhün bir addımlığında...

## Regional və qlobal şərtlər prosesi müsbət nəticəyə yönləndirir

Uzun sürən müharibədən sonra Cənubi Qafqaz ilk dəfədir sülhün bir addımlığındadır. SSRİ-nin dağılması ilə həm Azərbaycanın, həm də Ermənistanın müstəqillik əldə etdiyi tarixdən bəri işğalçı və təcavüzkar siyasət yürüdən İrəvan regionda normal dövlətlərarası münasibətlərin yaranmasına, bölgənin iqtisadi potensialından tam istifadə edilməsinə imkan verməyib. 2020-ci il Vətən müharibəsi ilə aradan qaldırılan işğal faktının ardından regionda həm də yeni siyasi reallıqlar yaranıb - artıq, sülh regionun gələcək inkişafı üçün ən vacib şərt kimi önə çıxıb.

2022-ci ildən Azərbaycanın təşəbbüsü ilə meydana çıxan proses ötən ildən yeni istiqamət alıb - xüsusilə, ikitərəfli danışıqların aparılması, dövlətlərin müvafiq strukturlarının birgə açıqlamalar yayması, eyni zamanda, bəzi ərazilərlə bağlı delimitasiya və demarkasiya işlərinin görülməsi uğurlu nəticə üçün ümid yaradıb. Bu

## Türkiyədən növbəti çağırış Ermənistan Azərbaycanın dəvətini qəbul etsə...

fakt həm dövlət rəsmiləri, həm də prosesə yaxın olan bir sıra qonşu ölkələr tərəfindən təsdiqlənir.

## Ankara Bakı ilə koordinasiyalı işi davam etdirəcək

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesi özündə başqa bir məsələni də ehtiva edir - sülhün imzalanması İrəvanın Türkiyə ilə də münasibətlərinn normallaşması üçün yaşıl işıq yandıracaq. Türkiyə rəsmiləri hər zaman İrəvan-Ankara danışıqlarının müsbət istiqamətə köklənməsini Azərbaycanla yürüdülən sülh prosesindən asılı olduğunu qeyd edirlər. Yeri gəlmişkən, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ölkənin Nazirlər Kabinetinin iclasındakı çıxışında regionda gedən proseslərə diqqət çəkərək Ankaranın Azərbaycan-Ermənistan arasında sülh prosesinin bağlanması üçün Bakı ilə koordinasiyalı işi davam etdirəcəyini vurğulayıb. Dövlət başçısı qeyd edib ki, Türkiyə Azərbaycan və Ermənistanın bu istiqamətdə səmimi səylərini görür və Ankara prosesi izləməyə davam edəcək: "İndi davamlı sülh üçün unikal imkan var. Ümid edirik ki, kənar qüvvələr prosesi sabotaj edə bilməyəcək və tezliklə xoş xəbərlər eşidəcəyik. Azərbaycanlı qardaşlarımızla koordinasiyalı şəkildə işləməyə davam edəcəyik".

O bildirib ki, oktyabrın 18-də İstanbulda "3+3" regional platformasının nazirlər toplantısı keçirilib. Ərdoğanın sözlərinə görə, platforma məhsuldardır və Ankara onu institusional platformaya çevirmək istəyir.

Xatırladaq ki, bu platforma çərçivəsində keçirilən İstanbul toplantısında da Prezident Ərdoğan Ankaranın Bakı ilə İrəvan arasında sülhün təmin edilməsi istiqamətində səyləri dəstəklədiyini bildirmişdi. Oktyabrın 18-də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan arasında İstanbulda "3+3" regional məşvərət platforması çərçivəsində baş tutan görüşdə tərəflər Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş ilə bağlı danışıqları davam etdirib, ən qısa zaman ərzində onun yekunlaşdırılması və bağlanması üçün daha çox səy göstərmək istiqamətində razılıq əldə etmişdilər.

Vurğulandığı kimi, sülh üçün beynəlxalq şərtlər də, regional şərtlər də məqbul sayılır - dünyanın aparıcı dövlətləri də bu fikri təsdiqləyir. Bir müddət öncə, Bakıda səfərdə olan Rusiya Prezidenti Vladimir Putin sülhün vacibliyini qeyd etmişdi. Oktyabrın 21-də Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Bayden Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktubunda sülh sazişinin Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsi ilə yanaşı, bütün regionu transformasiya edəcəyini, Avropa və Mərkəzi Asiya arasında daha çox ticarətə, sərmayə qoyuluşuna və bağlılığa xidmət göstərəcəyini qeyd etmişdi.

Region ölkələrinin də prosesə münasibəti təx-

## Sülh regiona inkişaf vəd edir...

minən eynidir - Türkiyə və Gürcüstan dəfələrlə sülhün Cənubi Qafqaz üçün nə qədər önəmli şərt kimi çıxış etməsini vurğulayıb. Sülhün imzalanması region üçün olduqca böyük perspektiv vəd edir. Sülh:

- Regionda proseslərin axarını və mahiyyətini dəyişəcək;
- Cənubi Qafqazın real vahid iqtisadi-siyasi zonaya çevrilməsini təsdiqləyəcək;
- Yaxın qonşuluq münasibətlərini formalaşdıracaq və sabit reigon statusu qazandıracaq;
- Qlobal iqtisadi xəttin mühüm bir parçası kimi çıxış etməyə imkan verəcək.

Təsadüfi deyil ki, bir neçə gün öncə Kazanda baş tutan BRICS toplantısında da Şərq-Qərb istiqamətində ticari logistikanın, nəqliyyat daşınmasının və dəhlizlərin önəmi vurğulanmışdı. Cənubi Qafqazda formalaşacaq sülh mühiti bu mənada da yeni beynəlxalq iqtisadi münasibətlər sisteminə töhfə verə bilər. Asiya ilə Avropanın "təbii körpüsü" adlandırılan, Şərq və Qərb ticari xəttinin qovşağı sayılan Azərbaycan yeni mərhələ üçün həm də Şimal - Cənub tranzitlərinin aktiv fəaliyyətinə zəmin yaradır. Azərbaycan istər təşəbbüskarı olduğu, istərsə də iştirakçı kimi təmsil olunduğu qlobal layihələrin ilk növbədə Cənubi Qafqaz regionunu əhatə etməsi, bölgəyə dividendlər qazandırması faktoruna fokuslanır. Bunun üçün isə sülh əsas şərtdir...



## İrəvan iradə göstərməlidir...

Sülhün yaranması üçün isə Ermənistan iradə nümayiş etdirməli və beynəlxalq hüquqa uyğun davranış sərgiləməlidir. Sülhün bərqərar olması üçün zəmini formalaşdıracaq iki şərt ortadadır: onlardan biri və birincisi Ermənistanın manipulyasiyalardan əl çəkərək qeyri-konstruktiv davranışlarına son qoymasıdır. Azərbaycanın humanist və beynəlxalq hüquqa söykənən mövqeyinin qarşılığında rəsmi İrəvanın bir sıra məsələlərdə məqsədli şəkildə ləngiməsi prosesin effektivliyini azaldan amil kimi çıxış edir. İlk növbədə Ermənistan özünün əsassız iddialarını unutmalı, Azərbaycanın beynəlxalq aləm tərəfindən qəbul edilən sərhədlərinin toxunulmazlığını tanımaqla yanaşı, qondarma ərazi iddialarından rəsmən əl çəkdiyini ortaya qoymalıdır. Sülh üçün ilkin və əsaslı şərt məhz budur - bunun üçün isə Ermənistan konstitusiyasında dəyişikliklər edilməlidir.

Zəmini formalaşdıracaq ikinci əsas məqam isə məsələlərin vasitəçisiz və ikitərəfli təmas əsasında razılaşdırılmasıdır. Xüsusilə, ATƏT-in Minsk qrupunun artıq qeyri-funksional halı təsdiqlənməlidir - bunun üçün Ermənistan öz tərəfindən belə bir quruma ehtiyacın qalmadığını bəyan etməlidir. Çünki artıq "Qarabağ münaqişəsi" tarixə çevrilib və hazırkı proses beynəlxalq status daşımır - bu, iki dövlət arasında münasibətlərin tənzimlənməsi prosesidir. Faktlar da sübut edir ki, iki dövlət arasında vasitəçisiz təmaslar prosesin inkişafına daha çox müsbət təkan vermək qabiliyyətindədir.

Hər zaman irəli sürdüyü qlobal təşəbbüslərlə yadda qalan Azərbaycanın ev sahibliyi edəcək COP29 da sülh üçün bir platforma olmaq iqtidarındadır. Ötən ilin dekabrında bu tədbirin Azərbaycanda baş tutmasına razılıq verən Ermənistanın bu tədbirdə təmsil olunması da sülh üçün mühüm çağırışa çevrilə bilər - qeyd edək ki, bununla bağlı Bakı İrəvana rəsmi dəvət göndərib. İki ölkə arasında diplomatik münasibətlərin olmadığını nəzərə alsaq, bu dəvəti Azərbaycanın sülhpərvər mövqeyinin növbəti təsdiqi də saymaq mümkündür. Hətta Ermənistan mətbuatı baş nazir Nikol Paşinyanın Bakıya səfər etməsini də mümkün sayır - erməni politoloqlar burada İrəvana sənəd imzalanmasının təklif oluna biləcəyini belə vurğulayıblar. Beləliklə, iqlim dəyişik-

## Azərbaycan rəsmi dəvət göndərib...

liyi konfransı kimi mühüm bir tədbirdə sülh prosesinin inkişafına dair atılması ehtimal edilən hər bir addım bölgənin ümumi siyasi-iqtisadi mənzərəsinə əlavə rəng qata bilər. Ermənistan isə regionda yeni siyasi-iqtisadi mərhələdə iştirakçı olaraq yer almaq istəiyrsə, özünün əsassız iddialarından əl çəkməli və ortadakı münbit şəraitin müsbət nətixcəyə yol açması üçün səy göstərməlidir.

***P. SADAYOĞLU***

## Milli Məclisin iclasında...

# Deputatlar Avropa Parlamentinin ölkəmizə qarşı qəbul etdiyi qərəzli qətnaməni pisləyiblər

*Nardar BAYRAMLI*

Oktyabrın 29-da Milli Məclisin (MM) növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova əvvəlcə oktyabrın 24-də Avropa Parlamentində Azərbaycana qarşı qəbul olunan qərəzli qətnaməyə münasibət bildirib. Həmin müzakirələri və qətnaməni Azərbaycanı hədəf alan növbəti siyasi aksiya kimi dəyərləndirən spikerin sözlərinə görə, qətnamə ölkəmizə qarşı böhtanlar, yalan və saxta məlumatlar üzərində qurulub.



## "Ölkəmizə qarşı sanki yürüşə çıxıblar"

S.Qafarova qeyd edib ki, Avropa Parlamentinin Azərbaycana qarşı düşmənçilik və qarayaxma kampaniyası aparan qüvvələrin əlində bir alətə çevrilməsi təəssüf doğurur: "Biz ölkəmizə qarşı irəli sürülən əsassız ittihamları, cəfəng iddiaları, təhdid və tələbləri qətiyyətlə rədd edirik.

Bu cür ədalətsiz və qeyri-obyektiv sənədlərin ortaya çıxması Cənubi Qafqaz regionunda tarixi ədalətin və beynəlxalq hüququn bərpası ilə barışa bilməyən qüvvələrin bəd niyyətlərini bir daha açıb göstərir. Hesab edirəm ki, Avropa Parlamenti bu qətnaməsi ilə nəinki bölgəmizdə tarixi və müasir reallıqlara qərəzli münasibətini nümayiş etdirir, həm də dövlətimizin beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünə qarşı çıxır".

MM sədri onu da deyib ki, Ermənistan 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlayıb, 1 milyon soydaşımızı qaçqın və məcburi köçkün həyatına məhkum edib, xalqımıza qarşı dəhşətli cinayətlər törədib, şəhər və kəndlərimizi, milli-mənəvi, tarixi və dini mirasımızı talan edib. Həmin dövrdə beynəlxalq ictimaiyyət nədənsə susmağa üstünlük veririrdi.

"44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında tarixi qələbələrdən sonra isə Avropa Parlamentində, digər təşkilatlarda və ölkələrdə Azərbaycanofob, türkofob və islamofob qüvvələr bütün beynəlxalq davranış normalarını və nəzakət qaydalarını bir kənara qoyaraq, ölkəmizə qarşı sanki yürüşə çıxıblar. Narahatlıq doğuran bir məqam da budur ki, Avropa Parlamenti Bakıda keçiriləcək COP29 kimi mühüm beynəlxalq tədbirdən ölkəmizə qarşı siyasi təzyiq aləti kimi istifadə etməyə cəhd göstərir. İqlim dəyişmələri qlobal problemdir və birlik tələb edir, lakin bu məsələdən də Azərbaycan əleyhinə gündəliyin təbliği üçün istifadə olunur",-deyə S.Qafarova vurğulayıb.

Onun sözlərinə görə, Azərbaycan siyasi dialoq və əməkdaşlıq üçün açıqdır və regionda sülh yaradılmasına sadiqdir, lakin hər hansı qərəzi, əsassız iddianı və tələbi, aqressiv ritorikanı qətiyyətlə rədd edir: "Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz müstəqil daxili və xarici siyasət yeridilir və heç bir təzyiq və ya hədə-qorxu bizi öz yolumuzdan döndərə bilməz".

Spiker çıxışında, həmçinin bu günlərdə Gürcüstan və Özbəkistanda parlament seçkilərinin keçirildiyini xatırladaraq Milli Məclisin üzvlərinin də bu seçkiləri müşahidə etdiklərini diqqətə çatdırıb: "Artıq hər iki seçkinin uğurla baş tutduğunu söyləmək olar. Biz Azərbaycana dost və qardaş ölkələrin əldə etdikləri nailiyyətlərə ürəkdən sevinirik və inanırıq ki, bu seçkilər Gürcüstan və Özbəkistanın hərtərəfli tərəqqisinə, eyni zamanda, Azərbaycanın bu ölkələrlə münasibətlərinə, sülh, sabitlik və davamlı inkişaf naminə əməkdaşlığının daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcək".

Daha sonra cari məsələlərlə bağlı çıxışlarda millət vəkilləri Avropa Parlamentinin qərəzli mövqeyini tənqid ediblər. Deputat Azər Badamov deyib ki, təmsil etdiyi Qusar rayonunda şəhid ailələri anti-Azərbaycan mərkəzlərinin və ölkəmizdə onlara xidmət edən müxalifətin mövqeyinə kəskin etiraz edir.

Parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Avropa təsisatlarının Azərbaycana qarşı dəfələrlə qərəzli sənədlər qəbul etdiyini xatırladıb. Onun sözlərinə görə, həmin təşkilatların məqsədinin nə olduğunu bilirik: "Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra onların əsl niyyətləri ortaya çıxdı".

Deputat Soltan Məmmədov isə deyib ki, COP29 kimi mötəbər tədbirə hazırlıq ərəfəsində ölkəmizə qarşı müxtəlif siyasi dairələrdən edilən hücumlar bizi qarşımızda duran hədəflərdən yayındırmaq məqsədi daşıyır. Avropa Parlamentinin oktyabrın 24-də qəbul etdiyi qərəzli və obyektivlikdən tamamilə uzaq qətnamə də məhz bu hücumların tərkib hissəsidir.

## "Qətnamə məhz bu hücumların tərkib hissəsidir"

Onun sözlərinə görə, regionda baş verən proseslər, Azərbaycanın irəli sürdüyü təşəbbüslərin məzmunu göstərir ki, bu gün Cənubi Qafqazda sülhün təmin olunması üçün ölkəmiz kifayət qədər ciddi səy göstərir. Təsadüfi deyil ki, COP29 gündəliyinə daxil olunmuş 14 böyük təşəbbüsdən biri də məhz sülhün, dialoqun və barışığın daha geniş şəkildə təbliği, iqlimlə bağlı fəaliyyət üçün bütün siyasi diqqəti və diplomatik səyləri səfərbər etmək məqsədi daşıyır.

COP29-u sülh prosesinin nəticəsi kimi qiymətləndirən deputat tədbirin gündəliyinə sülh mövzusunun daxil edilməsinin təsadüfi olmadığını bildirib. O qeyd edib ki, Azərbaycan dövləti COP29 konfransının ən yüksək səviyyədə təşkili üçün bütün imkanlarını səfərbər edib. Tədbirin məhz Azərbaycanda təşkil olunması ilə bağlı müzakirələrdə 198 ölkənin yekdil dəstəyi alınıb. Bu, ölkəmizə, Azərbaycan Prezidentinin siyasətinə dünyada olan yüksək etimadın göstəricisidir. Bütün manevrlərə, əsassız hücumlara və mənasız ittihamlara baxmayaraq, biz bu mötəbər iclası uğurla təşkil edəcəyimizə əminik. COP29-a hazırlıq prosesi ilə əlaqədar Azərbaycan bir çox ölkələr, beynəlxalq təşkilatlar və xarici tərəfdaşlarla sıx əməkdaşlıq edir. "Qlobal əhəmiyyətli mövzularda beynəlxalq birliyin məsuliyyətli üzvü kimi daim ümumi işə töhfə verməyə çalışan ölkəmizə qarşı haqsız ittihamlar bizi yolumuzdan döndərə bilməz. Azərbaycan bütün tərəfdaşları ilə münasibətləri kifayət qədər açıq və şəffaf şəkildə qurur. İnanırıq ki, Bakıda keçiriləcək konfrans iqlim dəyişiklikləri ilə mübarizə tarixində yeni səhifə olacaq", - deyə Soltan Məmmədov əlavə edib.

İclasda, həmçinin komitə sədri Siyavuş Novruzov, deputatlar Tural Gəncəliyev, Elşən Musayev, Nizami Cəfərov, Razi Nurullayev, Sahib Alıyev, Kamal Cəfərov və Bəhruz Məhərrəmov çıxış ediblər.

Sonra iclasın gündəliyində olan məsələlər müzakirəyə çıxarılıb. Gündəliyə 11 məsələ daxil edilib. Əvvəlcə iki dövlətlərarası sənəd - "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in və "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin təsdiq edilməsinə baxılıb. Parlamentin komitə sədri Səməd Seyidov məlumat verdikdən sonra sənədlər qəbul olunub.

## Alkoqollu içkilərin pərakəndə satışında minimum qiymət tətbiq olunacaq?

Sonra "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunda dəyişikliklər edilməsi barədə layihə (birinci oxunuş) müzakirəyə çıxarılıb. Layihə haqqında parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məlumat verib. O bildirib ki, dəyişikliklər alkoqollu içkilərin pərakəndə satışına dair minimum qiymət tələbinin müəyyən edilməsi məqsədilə hazırlanıb. Layihəyə əsasən, alkoqollu içkilərin pərakəndə satışının minimum qiyməti müəyyən ediləcək, bununla bağlı müvafiq qaydalar təsdiqlənəcək və pərakəndə satışının minimum qiyməti müəyyən edilmiş alkoqollu içkilərin həmin qiymətdən aşağı qiymətə satılması qadağan olunacaq.

Vurğulanıb ki, dəyişikliklər istehlakçıların sağlamlığının və hüquqlarının müdafiəsinin gücləndirilməsinə, alkoqollu içkilərin satışı bazarında minimum keyfiyyət və təhlükəsizlik göstəricilərinə cavab verməyən məhsulların qarşısının alınmasına, habelə yerli istehsalçıların iqtisadi maraqlarının qorunmasına xidmət edir.

Müzakirələr zamanı layihəni dəstəkləyən deputatlara yanaşı bəzi millət vəkilləri bu dəyişikliklərin bazar iqtisadiyyatı prinsiplərinə uyğun olmadığını söyləyiblər. Müzakirələrin sonunda qanun layihəsi birinci oxunuşda qəbul edilib.

## Torpaqlar sərfəli şərtlərlə icarəyə veriləcək

"Torpaq icarəsi haqqında" Qanunda (ikinci oxunuş) dəyişiklik edilməsi məsələsini isə parlamentin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev təqdim edib. O deyib ki, bu dəyişikliklər işğaldan azad edilmiş ərazilərdə torpaqların özəlləşdirilməsi demək deyil. T.Rzayev, bununla əlaqədar komitənin iclasında ətraflı məlumat verildiyini qeyd edib.

Müzakirələr zamanı çıxış edən deputat Eldar Quliyev layihəni dəstəkləyib, eləcə də bir sıra təkliflərini səsləndirib. Millət vəkili Aqil Abbas isə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərini yüksək qiymətləndirib. O deyib ki, Qarabağa qayıdan insanlara torpaq sahələri verilməlidir.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, qanuna edilən dəyişikliyə əsasən azad olunmuş ərazilərə qayıdan insanlara torpaqlar sərfəli şərtlərlə icarəyə veriləcək.

Müzakirələrdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Millət vəkilləri, həmçinin iclasın gündəliyində olan digər sənədləri də qəbul ediblər.

# Təkqütblükdən çoxqütblüyə...

## BRICS - yeni qlobal imkanlar platforması

## Dünyanı çoxtərəfli əlaqələr xilas edəcək...

Avropa İttifaqının aktuallığını itirməsi, Qərbin siyasi-iqtisadi nizamının pozulması, paralel olaraq ABŞ-ın "demokratiya yürüşü"nün konturlarının tam şəkildə iflasa uğruması beynəlxalq münasibətlər sisteminin geosiyasi nizamını dəyişir. Artıq "təkqütblü dünya axtarışı" planı cəlbedici görünmür - XX əsrin son onilliyindən etibarən daha güclü şəkildə irəli sürülən bu geosiyasi-geoiqtisadi formul yeni dövrdə gündəmdən çıxmağa məhkum olunur. SSRİ-nin dağılması ilə reallaşan disbalans artıq fərqli proyektorla əks olunur - Qərbin "rəqibi" kimi inkişaf etməkdə olan ölkələr birliyi çıxış edir. Başqa sözlə, bu dəfə kollektiv Qərbin enişə doğru yönələn təkqütblü "arzularını" çoxtərəfli münasibətlər sisteminin real nümunəsi sayılan BRICS "müşayiət edir"...

BRICS-in qısa zamanda populyarlaşması, qlobal səhnədə özünü göstərməsi "ildırım effekti" verdi. Minimal zaman kəsiyində geopolitik meydanda özünü sübut edən təşkilatın özülləri olduqca möhkəm idi. Çünki:

- Üzvləri yeni dünyanın özünü təqdim etmək istəyən "truppası" idi;
- Qlobal dünyaya lokal yollar axtaran, hədəfləri olan ölkələr idi.

Bir sözlə, BRICS-in üzvü Braziliyanın sabiq Azambujanın dediyi kimi,

## Müəllif axtarışında olan "aktyorlar"...

"BRICS "Pirandello" tamaşasındakı aktyorlar kimidir - müəllif axtarışındadırlar". Bu fikrin siyasi anlamı isə bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə söykənir.

BRICS-in fəaliyyət spektri mühüm məsələləri əhatə edir - iqtisadiyyat və təhlükəsizlik sahəsi burada prioritet sayılır. "Çoxtərəfli birlik" formulu bu təşkilatın gələcəyi üçün aydın bir yol açır. İnkişaf etməkdə olan ölkələrin iqtisadi sahədə qarşılıqlı faydalı və bərabərhüquqlu dialoqunun qurulması, elmi, texnoloji və təhsil sahəsində əlaqələrin gücləndirilməsinə töhfələr verilməsi çoxtərəfli əməkdaşlıq platforması olaraq BRICS-in üstünlüklərini ortaya qoyur.



## Çoxtərəfli dialoq üçün "yeni nəfəs"...

Beləliklə də, çoxtərəfli transformasiyanın nüvəsi sayılan BRICS özünün yeni inkişaf mərhələsinə qədəm qoyur. 2025-ci il qurum üçün "yeni nəfəs ili" sayılacaq. Tərəfdaşlığın genişləndirilməsi, məqsədlərin daha ardıcıl şəkil alması, fəal, praqmatik, açıq və şəffaf dialoqun gücləndirilməsi kimi kriteriyalar daha da önə çıxacaq.

Statistik rəqəmlərə nəzər yetirək: BRICS ölkələri birlikdə dünya ÜDM-nin demək olar ki, dörddə birini əks etdirir və dünya əhalisinin təxminən 45 faizini əhatə edən genişmiqyaslı qlobal bazar statusunu daşıyır. Həmçinin maliyyə resursları BRICS ölkələrində təxminən 25 trilyonu keçir. Təşkilatın iqtisadi konsepsiyasına əsasən, BRICS ölkələrində prioritetlər kənd təsərrüfatı, ticarət, investisiya və mineral xammala verilir. Qurumun 2025-ci ilə qədərki İqtisadi Tərəfdaşlıq Strategiyası da hazırlanıb - bu strategiyanın üç əsas bloku var:

-ticarət;

-investisiyalar və maliyyə;

-rəqəmsal iqtisadiyyat və davamlı inkişaf.

Formatın son dövrlərdə önə çəkdikləri prioritet vəzifələrindən biri koronavirus pandemiyası kimi bütün növ iqtisadi və qlobal böhranların aradan qaldırılması üçün səylərin birləşdirilməsidir. Ölkələr həmçinin ticarət məhdudiyyətlərinə qarşı çıxmaq və Ümumdünya Ticarət Təşkilatında islahatlar aparmaq üçün fəal iş aparırlar. Paralel olaraq BRICS-i fərqləndirən cəhətlərdən biri də iqtisadi artımı sürətləndirmək və dolların iqtisadiyyatlara təsirini zəiflətmək üçün milli valyutalarda hesablaşmaları inkişaf etdirmək tərəfdarı olmasıdır.

BRICS üzvü ölkələrin beynəlxalq maliyyə təşkilatı sayılan Yeni İnkişaf Bankı hazırda qurum ölkələrində təxminən 8 milyard dollar dəyərində bərpa olunan enerji və infrastruktur layihələrini təsdiqləyib. Beynəlxalq Valyuta Fondunun məlumatına görə, qlobal maliyyə böhranından sonra qlobal iqtisadiyyat üçün əsas dəstək sistemi kimi çıxış edən aşağı gəlirli ölkələrə məhz BRICS ticarəti və investisiyaları təmsil olunub.

BRICS-in Qərb koalisiyasından fərqinin bir aspekti də məhz bu amildir - üzvlüyə potensial namizədlər böyük milli layihələrin həyata keçirilməsi üçün Yeni İnkişaf Bankının maliyyə resurslarından istifadənin geniş imkanlarına maraqlıdırlar. Beləliklə, BRICS sırf qarşılıqlı maraqlar platformasında inkişaf etdirildiyi üçün yeni dünyanın yeni lokomotivi adlandırılır.

## Azərbaycan ən real regional əlaqələndirmə zənciri təqdim edir...

Milli iqtisadiyyatları inkişaf etdirmək, eləcə də qlobal inkişaf məqsədlərinə nail olmaq, o cümlədən ərzaq təhlükəsizliyini təmin etmək üçün assosiasiyaya üzv ölkələr arasında dialoqun aktivləşdirilməsi çoxtərəfli əməkdaşlıq üçün ən mühüm zəmindir - qeyd edilən amillər bu birliyi daha da güvənilir və cəlbedici hala gətirir. Bununla belə, BRICS ölkələri arasında ticarət həcminin artırılması, eləcə də yeni təchizat zəncirlərinin yaradılması perspektivi də aktiv şəkildə meydana çıxır - Azərbaycan kimi logistik və xüsusi coğrafi üstünlükləri olan ölkələrin BRICS üçün vacibliyi indeksi buradan açıq şəkildə görünür. BRICS üzvləri arasında ticarət dövriyyəsinin artırılması perspektivi haqda danışırıksa isə bütün tərəflər birmənalı olaraq vurğulayır ki, yaxın coğrafiyalar üzrə qarşılıqlı əlaqələrin inkişaf edirilməsi mövcud nəqliyyat infrastrukturunun modernləşdirilməsi və yenilənməsi ilə birbaşa bağlıdır. Paralel olaraq yeni optimal təchizat marşrutlarının işlənib hazırlanması və bu sahədə qabaqcıl təcrübə və həllərin mübadiləsi üzrə dövlətlərin birgə işi ön plana çıxır - yenə də, Azərbaycanın misalında məsələnin daha real və asan həlli mənzərəsi yaranır. Təsadüfi deyil ki, BRICS-in ən mühüm regional əlaqələndirmə zənciri Şərq-Qərb istiqaməti üzrə reallaşa bilər ki, Azərbaycan da burada açar dövlət statusunda çıxış etmək iqtidarındadır. Bu, həm də qurumun gələcək genişlənmə perspektivi üçün əhəmiyyət daşıyır:

- Birincisi, dövlətlərin bir-birindən arası məsafədə olmasında özünü göstərən coğrafi çətinliklər həllini tapır:

- Habelə assosiasiyanın daha da genişlənməsi perspektivləri güclənir:

- Ticari-iqtisadi sahədəki dialoq daha geniş müstəvi qazanır:

-BRICS ölkələrinin milli iqtisadiyyatlarının səmərəli inkişafı üçün dövlətlərin əlaqələndirilməsi yaranır. Beləliklə, çoxtərəfliliyin nümunəsi kimi meydana çıxan BRICS yeni mərhələdə dünyanın ən güclü strukturlaşmasını ortaya qoymaq imkanı əldə edir.

## Qərbin müdaxilə imkanlarının məhdudlaşdırılması...

Bütün bunlarla yanaşı, BRICS həm də siyasi birlik platforması kimi önəm daşıyır. Xüsusilə, Qərbin son illərdə daha çox nəzərə çarpan və ortaya çıxan "yuşmaq güc" vasitəsilə təsir etmək arzularının çoxunun nişangahı "inkişaf etməkdə olan ölkələrə" doğru yönəlib. Lokal maraqlar üçün milli dövlət anlayışını hədəfə alan xarici təsirlər yeni dünya düzənində oyun qaydalarını dəyişmək üçün bu kimi cəhdlərlə yadda qalır - halbuki, BRICS kimi nümunələr sübut edir ki, bərabərtərəfli münasibətlərin qurulması mövcud situasiyada daha böyük perspektiv vəd edir. Qərb isə bir sıra addımları ilə bu münasibətlər sisteminin qarşısına "tikanlı məftil" çəkir. BRICS-də vəziyyət və mənzərə tam fərqlidir. Çoxtərəfli və bərabərhüquqlu əməkdaşlıq anlayışı bu strukturun gələcək fəaliyyəti üçün "mayak" rolunu oynayır. Qarşılıqlı etimad isə uğurun əsas təminatçısıdır...

*Pərviz SADAYOĞLU*

# Azad edilmiş ərazilərdə etibarlı su infrastrukturları yaradılır

**30 illik işğal dövründə Ermənistanın ölkəmizə qarşı vandalizminin ən ağır fəsadlarından biri də içməli su xətlərinin, magistral və məhəllədaxili boru kəmərlərinin, su təsərrüfatları infrastrukturlarının darmadağın edilərək sıradan çıxarılması olub. Ermənilər ekoloji terror törədərək həm su mənbələrini və çayları dərin çirklənməyə məruz qoyub, həm də su sistemlərini və anbarları sıradan çıxarmaqla əhalinin və iqtisadiyyatın su təminatı zəncirini tamamilə pozub. Torpaqlarımız işğaldan azad edildikdən sonra bu bölgədə başlayan sürətli quruculuq və bərpa işlərinin mühüm bir hissəsi içməli su şəbəkəsi və su təsərrüfatı sistemlərinin də əsaslı şəkildə yenidən qurulmasını əhatə etməkdədir. Azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma planının icrası burada yaşayan insanların müvafiq kommunal xidmətlər, o cümlədən fasiləsiz su ilə təminatını da vacib edir. Məhz bu tələbləri nəzərə alaraq hökumət məskunlaşma ilə paralel şəkildə həmin xidmət infrastrukturlarını da qurur.**

## Zəngilan, Füzuli və Cəbrayılda sakinlərin su təchizatı təmin edilir

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) məlumatına görə, məskunlaşmanın ilk ünvanlarından biri olan Zəngilan şəhərində də sakinlərin su təminatı üçün ardıcıl tədbirlər görülür. Zəngilan şəhərinə fasiləsiz və dayanıqlı suyun verilməsi məqsədilə hər birinin tutumu 4000 kubmetr olmaqla 2 ədəd su anbarı inşa olunmaqdadır. Bundan əlavə, hər birinin tutumu 100 kubmetr olmaqla 2 ədəd su anbarı tikiləcək. Perspektiv plana uyğun 9 ədəd subartezian quyusunun inşası da nəzərdə tutulub.

Füzuli şəhərinə köçən sakinlərin su təchizatı ilə də bağlı zəruri infrastrukturlar yaradılıb, digər əlavə layihələr icra olunur. Bu rayonda növbəti mərhələlərdə məskunlaşacaq sakinləri su ilə təmin etmək üçün hər birinin tutumu 8500 kubmetr olan 2 ədəd və hər birinin tutumu 2500 kubmetr olan 2 ədəd su anbarı inşa edilir. Hazırda Füzuli şəhərinə su verilişi Gövşad kəndindəki mövcud mənbədən müvəqqəti olaraq 100 kubmetrlik anbar vasitəsilə tənzimlənir. İnşa edilən anbarlar istifadəyə verildikdən sonra rayonun digər sahələrində də fasiləsiz su təminatı həllini tapacaq və gələcəkdə Füzuli şəhərinin sakinləri su təminatında heç bir problem yaşanmayacaq.

Cəbrayıl şəhərində su təchizatı planına uyğun olaraq, 2023-cü ildə 1 ədəd geoloji kəşfiyyat quyusu qazılıb. Seçilmiş mənbənin məhsuldarlığı və suyun keyfiyyəti göstəriciləri şəhəri və ətraf kəndləri içməli su ilə təmin etməyə imkan verir. Şəhərin şimalında, ümumilikdə, 9 subartezian quyusunun qazılması layihələndirilib və bu istiqamətdə işlərə başlanılıb. İlkin mərhələdə 3 quyu qazılacaq. Şəhərdə məskunlaşacaq əhalinin sayı artdıqca yeni quyuların qazılması təmin ediləcək. Bundan başqa, Cəbrayılda hər birinin tutumu 1000 kubmetr olan 2 anbar tikilir. Cəbrayıl şəhərinin xarici su təchizatı və kanalizasiya sistemlərinin tikintisi layihəsi 2040-cı ilədək perspektiv inkişaf nəzərə alınmaqla 15 min nəfərin tələbatının ödənilməsinə hesablanıb.

Bütün bu layihələrin hər biri öz doğma evlərinə geri qayıdan sakinlərin fasiləsiz, dayanıqlı və keyfiyyətli içməli su ilə təmin olunmasını tam həll edəcək.

## Suqovuşan su anbarı 7-dən çox rayonun su təminatını həll etməkdədir

“İşğaldan azad edilmiş ərazilərə böyük qayıdışa dair Birinci Dövlət Proqramı”nda nəzərdə tutulan ümdə prioritetlərdən biri də bu ərazilərin su təchizatı magistral sistemlərinin qurulmasıdır. Tədbirlər Planına əsasən, ərazidəki çayların və qovşaqların təmizlənərək yeni kanallar vasitəsilə su anbarlarına toplanmasının təşkili, habelə həmin anbarların inşasıdır.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzurun ərazisindən keçən çayların bəzilərinin üzərində vaxtilə 9 su anbarı inşa edilmişdi. Onlardan Xudafərin, Sərsəng, Qız Qalası, Xaçın, “Aşağı Köndələnçay”, Suqovuşan, “Köndələnçay-1”, “Köndələnçay-2” və Ağdamkənd su anbarları bölgənin və ətraf rayonların su təchizatında əhəmiyyətli yer tuturdu. İşğal dövründə Azərbaycanın su ehtiyatlarının təxminən 25 faizindən çox hissəsini formalaşdıran dayanıqlı mənbələr məhv edilməklə ölkəmizin iqtisadiyyatına, ələlxüsus da kənd təsərrüfatına ciddi zərərlər dəyib.

Dövlət Proqramının icrası çərçivəsində ötən dövr ərzində bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilib. Həmin prioritetlərdən ən mühüm olan Suqovuşan su anbarının 5,2 km uzunluğunda magistral kanalla birlikdə təmiri və bərpası nəzərdə tutulmuşdu ki, bu istiqamətdə işlər vaxtından əvvəl, 2023-cü ilin sonlarında yekunlaşıb. Sututumu 5,86 mln kubmetr olan hidroqovşağın təmir-bərpası işləri çərçivəsində uzunluğu 630 metr, hündürlüyü 28 metr, eni isə 10 metr olan anbar tam hazır vəziyyətə gətirilərək istifadəyə verilib. Su anbarının ölkəmizin su sisteminə inteqrasiya olunması nəticəsində Tərtər rayonunda 24,5 min, Ağdərə ərazisində 14,4 min, Goranboy rayonunda 7 min, Yevlax rayonunda 5,9 min, Bərdə rayonunda 12,6 min, Ağdam rayonunda 30 min, Ağcabədi rayonunda 2 min hektar olmaqla, ümumilikdə, 96 min hektardan çox torpaq sahəsinin su təminatı həllini tapıb.





Bölgənin su təsərrüfatında əhəmiyyətli layihələrdən biri olan Xaçınçay su anbarının 7 km uzunluğunda kanalla birlikdə təmiri və bərpası işləri də uğurla davam etdirilib və ötən ilin dekabrında həmin su anbarı da təmir-bərpadan sonra istifadəyə verilib. Ağdam rayonu ərazisində yerləşən Xaçınçay su anbarının su tutumu 23 milyon kubmetr, bəndin hündürlüyü 44 metr, uzunluğu 940 metr, su səthinin güzgü sahəsi isə 176 hektar təşkil edir. Bu mənbə, ümumilikdə, suvarılan 7 min hektar torpaq sahələrinin su təminatının yaxşılaşdırılmasına səbəb olacaq.”Aşağı Köndələnçay”, “Köndələnçay-1” və “Köndələnçay- 2” su anbarlarının təmiri və bərpası da tədbirlər planına uyğun şəkildə fasiləsiz davam etdirilib, Köndələnçay ətrafındakı bütün infrastrukturlar tamamilə yenidən qurulub və cari ilin may ayında bu çayın ehtiyatları ilə qidalanan 3 su anbarından 2-si tam hazır vəziyyətə gətirilərək istifadəyə verilib.

Cəbrayıl rayonunda 12 min hektar yeni, Füzuli və digər rayonlar üzrə 252 min hektar mövcud əkin sahəsinin su təminatının yaxşılaşdırılmasında mühüm rol oynayacaq Qız qalası su anbarından magistral suvarma kanalının tikintisi işləri də plan üzrə davam etdirilməkdədir.

## Şərqi-Zəngəzurun ən nəhəng infrastrukturu - Xudafərin Su Anbarı hazırdır

Azad ərazilərdə ən böyük anbarlardan biri Xudafərin Su Anbarıdır. Bu, su deposu bölgənin ən nəhəng anbarı hesab edilir. Cəbrayıl və Zəngilan rayonlarının inzibati ərazisində - Şərqi Zəngəzurda yerləşən Xudafərin Su Anbarının su ehtiyatları ilə tam təmin edilməsi istiqamətində işlər də sürətlə davam etdirilir. Layihə çərçivəsində Araz çayı üzərində inşa edilmiş “Xudafərin” hidroqovşağında su bəndlərinin tikintisi üzrə işlər tamamlanıb və cari il mayın 19-da hidroqovşaq istismara verilib, su anbarlarının doldurulması işlərinə başlanılıb. Xudafərin Su Anbarında hazırda 720 milyon kubmetrdən çox su ehtiyatı toplanıb. Su tutumu 1,612 milyard kubmetr olan anbarın tamamilə doldurulması başa çatdırıldıqdan sonra əkin sahələrinin suvarılması üçün nəhəng bir mənbə yaranacaq.

## Bərgüşadçay, Həkəriçay və Zabuxçay su anbarları yaradılacaq...

Azad ərazilərdə, həmçinin digər layihələrin - Bərgüşadçay, Həkəriçay və Zabuxçay su anbarlarının və suvarma kanalının tikintisi işlərinə də start verilib. Bərgüşadçay su anbarı Qubadlı rayonu ərazisində təqribən 12 min hektar yeni torpaq sahəsinin suvarılmasını və Qız qalası hidroqovşağından çıxan kanalın qidalandırılmasını, Həkəriçay su anbarı Şuşa, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Ağdam, Beyləqan, İmişli, Saatlı, Sabirabad rayonlarında 3 milyona yaxın əhalinin yüksək keyfiyyətli içməli su ilə təchizatını, Zabuxçay su anbarı isə Qubadlı və Zəngilan rayonları ərazisində 12100 ha torpaq sahəsinin suvarılmasını təmin edəcək.

İşğaldan azad olunmuş ərazilərdə hazırda, ümumilikdə, 9 su anbarı tikilir və ya təmir olunur. Qarabağın və Şərqi Zənguzurun zəngin su ehtiyatlarının düzgün və səmərəli idarə olunması bütövlükdə, regionun iqtisadi inkişafını sürətləndirəcək. Həmin ərazilərin kənd təsərrüfatı sahəsində potensialı ölkə iqtisadiyyatı üçün mühüm drayverlərdən birinə çevriləcək. Bütün bunlarla yanaşı, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonları üzrə ayrı-ayrılıqda meliorasiya və su təsərrüfatı komplekslərinin bərpası və inkişafı ilə bağlı layihələr də həyata keçiriləcək.

Yaxın 2 il ərzində inşası başa çatdırılması nəzərdə tutulan bu layihələrin ölkəmizin su zəncirinə qoşulması su təhlükəsizliyinin etibarlı və dayanıqlı şəkildə təmin olunmasında əsas sütunlardan biri olacaq. Nəzərə alsaq ki, qarşıdakı illərdə kəskin xarakter alan iqlim dəyişmələri, habelə qonşu ölkələrdən daxil olan yerüstü su həcmlərinin və yağıntıların əhəmiyyətli dərəcədə azalması, digər tərəfdən isə ölkə iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının inkişafı, əkin sahələrinin, suvarma və içməli su təchizatı şəbəkələrinin genişləndirilməsi nəticəsində suya tələbatın artması ölkəmizdə su təhlükəsizliyi ilə bağlı məsələləri daha da aktuallaşdırır, bu baxımdan 2,2 milyard kubmetr su ehtiyatlarına malik Qarabağ və Şərqi-Zəngəzurda yaradılan su anbarları milli su təhlükəsizliyinin təminatında mühüm rol oynayacaq.

*ELBRUS CƏFƏRLİ*

# İqlim dəyişikliyinə qarşı...

## Ekoloji təhlükələrin aqrar sahəyə təsirlərini azaltmaq üçün nüvə texnologiyalarının tətbiqinə başlanılıb

Son illərdə qlobal iqlim fəsadlarının ətraf mühitə təsirlərinin güclənməsi bir çox iqtisadi sahələrə, o cümlədən kənd təsərrüfatına ciddi ziyanlar vurmaqdadır. İqlim dəyişikliyi səbəbindən suvarma suyunun çatışmazlığı, quraqlıq, yüksək temperatur və yağıntıların azalması baş verir ki, bu da məhsul istehsalında riskləri hər il artırır. BMT-nin 2021-ci ildə dərc etdiyi hesabata əsasən, ekoloji problemlərin yaxın onilliklərdə artacağı, kənd təsərrüfatı, iqtisadiyyat, və digər sahələrə mənfi təsirlərin dərin xarakter alacağı ehtimal olunur. Bu baxımdan onlardan biri - nüvə texnologiyaları quraqlığa, şoranlığa, xəstəliklərə qarşı dözümlü olan yeni bitki, xüsusilə də pambıq və taxıl sortlarının yaradılmasında ən təsirli mexanizmlərdən biri hesab olunur. Hətta bir çox ölkələr hazırda nüvə texnologiyalarını iqtisadiyyatın və sənayenin innovasiyalaşmasına, startup yönümlü layihələrə də cəlb etməyi düşünür.

### Atom Agentliyinin hibrid sortları...

Azərbaycan hökuməti də qlobal iqlim çağırışlarına həssaslıqla yanaşaraq “yaşıl kənd təsərrüfatı”na dəstək üzrə uzunmüddətli Birgə Fəaliyyət Proqramı layihəsi hazırlayıb. Layihədə kənd təsərrüfatı fəaliyyətinin ətraf mühitə mənfi təsirlərinin yumşaldılması, istixana qazlarının azaldılması, aqrobağların salınması, su, torpaq və meşə ehtiyatlarından səmərəli istifadə, biomüxtəlifliyin, ekosistemlərin qorunması, akvakulturanın və orqanik kənd təsərrüfatının inkişafına dəstək verilməsi, institusional potensialın gücləndirilməsi, eləcə də quraqlığa dözümlü yeni sortların yaradılması ilə bağlı tədbirlər müəyyən olunub. Xarici ölkələrin təcrübəsinə əsaslanan bu konsepsiya sənədinin reallaşması üçün “yaşıl kənd təsərrüfatı” sahəsində yetkin təcrübəsi olan xarici ölkələrlə, eləcə də nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq nəzərdə tutulub.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Agentliyinin (FAO) tövsiyəsinə əsasən, respublikamızda pilot layihənin icrası məqsədilə Atom Enerjisi üzrə Beynəlxalq Agentliyi (AEBA) ilə əməkdaşlığa başlanılıb. Dünyada müasir “yaşıl aqrar” modellərinin tədbiqində faydalı nəticələri ilə fərqlənən AEBA-nın nümayəndə heyəti ölkəmizə səfər edərək aqrar sektoru dərindən təhlil edərək iqlim dəyişikliyinə adaptasiya edilən texnologiyaların tətbiqi ilə bağlı ilkin yol xəritəsi hazırlayıb. Həmin strateji yanaşma əsasında pambıqçılıq sahəsində xəstəliklərə, şoranlığa, quraqlığa davamlı sortların yaradılması üçün nüvə texnologiyasından istifadəyə start verilib. Layihəyə əsasən, şüalandırma yolu ilə yeni mutant bitki, hibrid sortların alınmasına başlanılıb.

### “Ağıllı nüvə texnologiyaları”nın pambıqçılıqda tətbiqi...

AEBA “ağıllı nüvə texnologiyaları”nın pambıqçılıqda tətbiqi məqsədilə 3 il əvvəl azərbaycanlı aqrar elm üzrə mütəxəssislərə, eləcə də fermerlərə və mülkiyyətçilərə ənənəvi texnologiyalardan qabaqcıl kənd təsərrüfatı metodlarına keçidlə bağlı təcrübəni öyrədib. Agentliyin əməkdaşlarının sınaq metodlarına əsasən, 12 min pambıq toxumu AMEA-nın Radiasiya Problemləri İnstitutunda müəyyən dozalarda şüalandırılıb və əkini aparılıb. Üç il ərzində layihə çərçivəsində “Mutant-1”, “Mutant-2” və “Mutant-3” nəsil bitkilər alınıb və bitkilər xəstəlik, quraqlıq və şoranlığa davamlılıq xüsusiyyətlərinə görə seçilib. Yekunda üç il davam edən layihə nəticəsində Azərbaycanda yerli pambıq sortlarından quraqlığa və şoranlığa davamlı mutant xətlər almaq mümkün olub. Bu texnologiyanın üstünlüyü ondan ibarətdir ki, adi, klassik seleksiya yolu ilə yeni sort 10-12 ilə alınırsa, bu texnologiyanın tətbiqi ilə sortun alınması ən azı iki dəfə qısalır. Yəni 5-6 ilə yeni sortlar almaq mümkündür. Hazırda pambıq əkinində həmin texnologiyaların tətbiqinin genişləndirilməsi nəzərdə tutulur.



### Taxılçılıqda da nüvə texnologiyalarından istifadə olunacaq

AEBA ölkəmizdə müsbət effekt verən bu aqrotexnoloji yanaşmanın genişləndirilməsini və əməkdaşlığın növbəti mərhələsi kimi taxılçılıqda nüvə texnologiyasının tətbiqini təklif edib. Əldə edilmiş razılaşmaya əsasən, AEBA-nın maliyyə dəstəyi ilə əlverişsiz mühit amillərinə qarşı davamlı taxıl sortlarının yaradılması layihəsinin hazırlıqlarına başlanılıb. İlkin seleksiya işləri müsbət dəyərləndirilir və bu istiqamətdə daha geniş nüvə tədqiqlərinin aparılması nəzərdə tutulur.

Bir neçə gün əvvəl ölkəmizdə səfərdə olan Atom Enerjisi üzrə Beynəlxalq Agentliyinin eksperti Qreyg Makkenzi ilə Kənd Təsərrüfatı Nazirliyində keçirilən görüşdə buğda və arpa istehsalında “ağıllı kənd təsərrüfatı” üzrə təcrübə mübadiləsi məsələsi müzakirə olunub və taxılçılıqda nüvə texnologiyalarının yeni alətlərinin tətbiqi məqsədəuyğun hesab edilib.

Beləliklə, aqrar sahədə nüvə texnologiyalarının tətbiqi müasir dövrdə ölkəmizin milli iqtisadi siyasətində başlıca yer tutan ərzaq təhlükəsizliyinin gücləndirilməsi və ətraf mühitə mənfi təsirlərin azaldılması strategiyasına əsasən, ərzaqlıq buğda istehsalında məhsuldarlığın artmasına, iqlim dəyişikliyinin təsirlərinin minimuma endirilməsinə imkan verəcək.

*E.CƏFƏRLİ*

# COP29 ərəfəsində...

## İctimai və dövlət maraqlarımızı necə qoruyaq?

Ölkəmizin beynəlxalq səviyyədə mövqeyini gücləndirməsi, iqtisadiyyatımızın inkişafı və müstəqil siyasət yürütməsi Qərb dairələrində narahatlıq yaradır. Xüsusilə, COP29 kimi mühüm bir beynəlxalq tədbirin Bakıda keçirilməsi Azərbaycana qarşı informasiya müharibəsini genişləndirmək cəhdlərini artıq açıq şəkildə sübut edir. Azərbaycana qarşı sistemli bir informasiya müharibəsi aparılır. Bu müharibənin məqsədi yalnız Azərbaycanın beynəlxalq nüfuzunu zədələmək deyil, eyni zamanda ölkənin enerji resurslarına çıxışını məhdudlaşdırmaqdır.

Müasir dövrdə informasiyanın əldə edilməsi, yayılması çox rahatdır. Lakin yayılan məlumatların çoxu da dezinformasiya olur. Cəmiyyəti dezinformasiyadan qorumaq lazımdır. Vətən müharibəsindən sonra Azərbaycanı gözü götürməyən qüvvələr məqsədli şəkildə sosial şəbəkələrdə dezinformasiyalar yayırdı. Paytaxtımızda keçirilməsinə sayılı günlər qalmış COP29 kimi tədbirin keçirilməsi ilə bağlı da müxtəlif platformalarda dezinformasiyalar yayılır. Belə bir məqamda ictimai və dövlət maraqlarımızın qorunması aktuallıq kəsb edən məsələlərdəndir.

Mövzu barədə fikirlərini bölüşən millət vəkili Azər Badamov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, COP29 kimi mötəbər tədbirə hazırlıq ərəfəsində ölkəmizə qarşı müxtəlif siyasi dairələrdən edilən hücumlar bizi qarşımızda duran hədəflərdən yayındırmaq məqsədi daşıyır. Məsələn, Avropa Parlamentinin oktyabrın 24-də qəbul etdiyi qərəzli və obyektivlikdən tamamilə uzaq qətnamə də məhz bu hücumların tərkib hissəsidir.

Deputatın sözlərinə görə, regionda baş verən proseslər, Azərbaycanın irəli sürdüyü təşəbbüslərin məzmunu göstərir ki, bu gün Cənubi Qafqazda sülhün təmin olunması üçün ölkəmiz kifayət qədər ciddi səy göstərir: "Təsadüfi deyil ki, COP29 gündəliyinə daxil olunmuş 14 böyük təşəbbüsdən biri də məhz sülhün, dialoqun və barışığın daha geniş şəkildə təbliği, iqlimlə bağlı fəaliyyət üçün bütün siyasi diqqəti və diplomatik səyləri səfərbər etmək məqsədi daşıyır".

**Haqsız ittihamlar bizi yolumuzdan döndərə bilməz**

COP29-u sülh prosesinin nəticəsi kimi qiymətləndirən deputat tədbirin gündəliyinə sülh mövzusunun daxil edilməsinin təsadüfi olmadığını bildirib. O, qeyd edib ki, Azərbaycan COP29 konfransının ən yüksək səviyyədə təşkili üçün bütün imkanlarını səfərbər edib: "Tədbirin məhz Azərbaycanda təşkil olunması ilə bağlı müzakirələrdə 198 ölkənin yekdil dəstəyi alınıb. Bu, ölkəmizə, Azərbaycan Prezidentinin siyasətinə dünyada olan yüksək etimadın göstəricisidir. Bütün maneələrə, əsassız hücumlara və mənasız ittihamlara baxmayaraq, biz bu mötəbər iclası uğurla təşkil edəcəyimizə əminik. COP29-a hazırlıq prosesi ilə əlaqədar Azərbaycan bir çox ölkələr, beynəlxalq təşkilatlar və xarici tərəfdaşlarla sıx əməkdaşlıq edir. Konfrans çərçivəsində Parlamentlərarası İttifaq tərəfindən xüsusi iclas da təşkil olunacaq. Azərbaycan Milli Məclisi parlament görüşünün yüksək səviyyədə təşkili ilə bağlı üzərinə düşən bütün məsələləri operativ şəkildə həll edir.

Azərbaycan COP29-a ev sahibliyi etməklə iqlim dəyişmələrinə qarşı mübarizə kimi mühüm qlobal məsələdə nümunəvi liderlik nümayiş etdirir. COP29 konfransının regionda ilk dəfə Azərbaycanda təşkil olunması buna ən parlaq sübut kimi qiymətləndirilə bilər. Bizim başlıca amalımız bütün dövlətlərin yaşıl, ədalətli, inklüziv və dayanıqlı dünya naminə həmrəyliyinə nail olmaqdır. Azərbaycan ev sahibliyi edəcəyi bu tədbirdə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq əzmindədir. Qlobal əhəmiyyətli mövzularda beynəlxalq birliyin məsuliyyətli üzvü kimi daim ümumi işə töhfə verməyə çalışan ölkəmizə qarşı haqsız ittihamlar bizi yolumuzdan döndərə bilməz. Hər zaman olduğu ki, bu dəfə də ictimai və dövlət maraqlarımızın qorunması istiqamətində lazım olan bütün tədbirlər görüləcək. Azərbaycan bütün tərəfdaşları ilə münasibətləri kifayət qədər açıq və şəffaf şəkildə qurur. İnanırıq ki, Bakıda keçiriləcək konfrans iqlim dəyişiklikləri ilə mübarizə tarixində yeni səhifə olacaq".

**Daha mütəşəkkil cavablar verilməlidir**

Millət vəkili qeyd edib ki, COP29 ərəfəsində ölkəmizə qarşı olan siyasi hücumlarla mübarizədə, dövlət maraqlarının qorunması üçün atılmalı olan tədbirlər sırasında yerli medianın daha da inkişaf etdirilməsi dayanır: "Milli maraqların qorunması, Azərbaycana qarşı dezinformasiyaların qarşısını almaq üçün bütün səylər birləşdirilməlidir. Daha mütəşəkkil və səviyyəli cavablar verilməlidir. Xüsusilə, COP29 ərəfəsində və ya konfrans bitdikdən sonra bizə qarşı bu kimi hücumlara hazır olmalıyıq".

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti üzrə hazırlanmışdır**

# Dünya azərbaycanlıları Avropa Parlamentindən ədalət tələb edir

**Azərbaycan dövləti apardığı strateji məqsədlərə hesablanan siyasəti ilə həm ölkə daxilində güclü həmrəylik mühiti yaratmağa, həm də hansısa bir səbəbdən Vətəndən uzaqlarda yaşayan dünya azərbaycanlılarını ümummilli ideyalar ətrafında birləşdirməyə nail olub. Taleyüklü məqamlarda, ümummilli məsələlərdə xaricdə yaşayan soydaşlarımızın Azərbaycana əllərindən gələn dəstəyi vermələri bunun əyani ifadəsidir. Bu günlərdə Almaniyanın Münster şəhərində fəaliyyət göstərən Avropa Azərbaycan Mərkəzinin sədri Zaur Əliyev Avropa Parlamentinə (AP) Azərbaycanla bağlı qəbul etdiyi növbəti qərəzli qətnaməyə görə etiraz bəyanatı ünvanlayıb. Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.**

## Bütün suveren dövlətlər üçün narahatlıq yaradan proseslər

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, bəyanatda Avropa Parlamentinin 2024-cü il 24 oktyabr tarixində Azərbaycana qarşı qəbul etdiyi qətnamə beynəlxalq hüququn normalarına zidd, obyektivlikdən uzaq və birtərəfli addım kimi qiymətləndirilib. Bu qərarın təməlindəki qərəzli yanaşmanın yalnız Azərbaycan deyil, bütün suveren ölkələr üçün narahatlıq doğurduğu vurğulanıb.

Həqiqətən də, son illərdə dünya miqyasında, o cümlədən də Avropa İttifaqı (Aİ) məkanında təhlükəli proseslər izlənilir. Bir sıra hallarda beynəlxalq hüquq arxa plana keçir, ikili standartlar və selektiv yanaşmalar önə çəkilir. Ayrı-ayrı Avropa dövlətləri və təsisatları tərəfindən milli dövlətlərə qarşı təzyiq göstərmək cəhdləri artıb. Azərbaycan belə yanaşmaları uzun illər ərzində öz üzərində hiss edən, bunu yaşayan dövlətdir. Ölkəmiz otuz il ərzində Ermənistanın işğalından əziyyət çəkib. Ötən əsrin doxsanıncı illərinin əvvəlindən başlayan bu işğal nəticəsində ərazilərimizin 20 faizini itirmişdik, bir milyondan çox azərbaycanlı doğma yurd yerlərini tərk etmək məcburiyyətində qalmışdı. Bu, əsl humanitar fəlakət idi. İnsanlar vaqonlarda və necəgəldi tikililərdə yaşayırdılar. Ancaq beynəlxalq birlik tərəfindən Azərbaycana dəstək göstərilmirdi, təcavüzkar dövlət BMT-nin qətnamələrini yerinə yetirmədiyinə görə cəzalandırılmırdı. Cəzasız qaldığından şirniklənən Ermənistan rəsmiləri isə yeni ərazilər ələ keçirmək, tanklarla Bakıyadək irəliləmək iddiaları səsləndirirdilər. Bəs bu gün Azərbaycanı qınayan, ölkəmizə qarşı qərəzli qətnamələr qəbul edən Fransa kimi ölkələr, AŞPA, AP kimi qurumlar nə üçün onilliklər ərzində Ermənistanın təcəvüzkarlıq siyasətinə adekvat qiymət vermirdilər? Belə ayrı-seçkiçilik olarmı? Budurmu Avropanın ədaləti?

Almaniyanın Münster şəhərində fəaliyyət göstərən Avropa Azərbaycan Mərkəzinin sədri Zaur Əliyevin yaydığı bəyanatda ölkəmizin öz torpaqlarını işğaldan azad etməsinin beynəlxalq hüququn tələblərinə uyğun olduğu diqqətə çatdırılıb. Bu gün ayrı-ayrı Avropa dövlətlərində və təsisatlarında Azərbaycanofobiyanın güclənməsinin təməlində məhz ölkəmizin öz gücünə ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsi amili dayanır. Otuz il ərzində özlərini lallar və korlar kimi aparan dairələr Azərbaycanın 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazandığı möhtəşəm qələbələri sinirə bilmirlər. Bəli, Azərbaycan yalnız Ermənistana qalib gəlməyib, həm də işğalçı dövlətə havadarlıq edən Avropa dairələrini məğlubiyyətə uğrdıb. Ölkəmiz həm hərb meydanında, həm də diplomatik müstəvidə qalib oldu. Ordumuz döyüş meydanında şücaətlər göstərməklə müharibənin davam etdiyi hər gün irəlilədi, şəhər və kəndlərimizi bir-birinin ardınca işğaldan azad etdi. Paralel şəkildə mübarizəni diplomatik müstəvidə Prezident İlham Əliyev aparırdı. Fransa prezidenti E.Makron dövlətimizin başçısına tez-tez telefon açaraq müharibənin dayandırılmasını istəyirdi. Prezident İlham Əliyev isə adekvat şərtlərini irəli sürürdü və qətiyyət, milli iradə ortaya qoyurdu. Bəzi transmilli media təmsilçiləri dövlətimizin başçısından müsahibələr alarkən Ona təhrikedici, bəzən də hökmedici suallar ünvanlayırdılar. İlham Əliyevin cavabları isə bir qayda olaraq tarixi həqiqətlərə, beynəlxalq hüquqa əsaslanırdı və əlavə şərhlərə ehtiyac qalmırdı. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini təmin edərkən beynəlxalq hüquqdan kənara çıxan hansısa bir addım atmayıb. Müharibə bizim ərazilərimizdə gedib və bu tamamilə ədalətli bir müharibə idi. Ərazi bütövlüyünü qorumaq hər bir dövlətin suveren hüququdur və Azərbaycan da bu hüququndan istifadə edib. Avropa Parlamentinin buna görə Azərbaycana qınaqlar ünvanlamasının heç bir əsası yoxdur. "Otuz il ərzində bir milyona yaxın azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinin, onların fundamental hüquqlarının pozulmasının diqqətdən kənarda qalması bu qətnamənin birtərəfli, qərəzli mövqedə olmasını bir daha təsdiq edir", - deyə bəyanatda vurğulanıb.

## Avropa Parlamenti mina terroruna, mədəni irsin dağıdılmasına, itkin düşənlərin taleyinə niyə biganə yanaşır?

Avropa Azərbaycan Mərkəzinin sədri Zaur Əliyev Avropa Parlamentinə ünvanladığı bəyanatında mühüm bir məqama diqqət çəkib. Sənəddə qeyd edilib ki, Ermənistanın işğal dövründə törətdiyi mina terroruna, dağıdılmış mədəni və tarixi irsimizə, həmçinin itkin düşən 4 min soydaşımızın taleyinə dair hər hansı obyektiv mövqenin ortaya qoyulmaması təəssüf doğurur.



"EUROPÄISCHES ASERBAIDSCHAN ZENTRUM e.V."
"AVROPA AZƏRBAYCAN MƏRKƏZİ"

**Statement to the European Parliament**

Dear Leadership and Members of the European Parliament,

We, **Europäisches Aserbaidschan Zentrum e.V.**, firmly condemn the resolution adopted by the European Parliament on October 24, 2024, regarding Azerbaijan, as it represents a one-sided, unjust action that disregards the core principles of international law and objectivity. This decision, rooted in biased motives, is concerning not only for Azerbaijan but for all sovereign states. The right of every state to defend its territorial integrity is a fundamental principle upheld by the UN Charter and international law.

Azerbaijan has acted within the requirements of international law by implementing UN Security Council resolutions to restore its territorial integrity. Nonetheless, the resolution disregards the serious issues Azerbaijan faces, including the terror caused by landmines planted during the occupation by Armenia, the destruction of cultural and historical heritage, and the unresolved fate of 4,000 Azerbaijani missing persons. Over 30 years, nearly one million displaced Azerbaijanis have endured substantial human rights violations, largely overlooked internationally, highlighting the unbalanced nature of this resolution.

The call within the resolution to re-evaluate the strategic energy partnership between the European Union and Azerbaijan is equally troubling. Azerbaijan plays a critical role in Europe's energy security, and suspending such cooperation could negatively impact not only the EU's energy stability but also global energy security. The potential economic and geopolitical risks for both parties render this an impractical stance.

Moreover, efforts to politicize COP29, a global platform dedicated to combating climate change, further detract from the resolution's integrity. COP29 is intended to be a unifying event, and using it as a political tool undermines its goals of environmental protection and global peace and security.

For these reasons, **Europäisches Aserbaidschan Zentrum e.V.** unequivocally condemns this resolution as an unjust decision that disregards the fundamental rights of sovereign states and international legal standards. Upholding the universal principles of impartiality, objectivity, and respect for sovereignty must remain central to any international decision.

Sincerely,
**Europäisches Aserbaidschan Zentrum e.V.**
Chairman, Zaur Aliyev
Münster, Germany
October 26, 2024



Ermənistan işğal illərində, İkinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə və postmüharibə mərhələsində Azərbaycana qarşı çoxsaylı müharibə cinayətləri törədib. Dinc əhalinin qadağan olunmuş silahlarla atəşə tutulması, mülki infrastruktura ziyan vurulması, qanunsuz məskunlaşdırma, İslam dininə aid abidələrin dağıdılması və təhqirlərə məruz qoyulması belə ikrah doğuran əməllər sırasındadır. Müharibə başa çatandan sonra işğaldan azad edilmiş ərazilərdə bərpa işləri aparılarkən bir neçə ünvanda kütləvi məzarlıqlar aşkarlanıb. Məlum olur ki, erməni silahlı birləşmələri həyatlarına vəhşicəsinə son qoyduqları soydaşlarımızı bu məzarlıqlarda basdırıblar və insanlıq əleyhinə cinayətlərini gizlətmək üçün onların xəritələrini Azərbaycana verməyiblər. Bütün bu kimi əməllər ermənilərin özləri barəsində uydurduqları "mədəni xalq" mifini darmadağın edir. Mədəni xalq belə vəhşilikləri törətməyi heç vaxt özünə rəva görməz.

Ermənilərin çoxsaylı müharibə cinayətlərinin sırasında mina terroru xüsusi yer tutur. Azərbaycan dünyada minalarla ən çox çirkləndirilmiş və bu problemdən ən çox əziyyət çəkən ölkələrdən biridir. İndiyədək 380-dən çox insan mina terrorunun qurbanı olub. Bütövlükdə, işğaldan azad olunan ərazilərdə 1,5 milyon mina olduğu ehtimal edilir. Vətən müharibəsi başa çatandan sonra qeyd olunan ərazilərdə 168 min hektar sahə minalardan təmizlənib. Təmizlənmiş ərazilərdən 161 min mina aşkarlanıb. Minaların məqsədli şəkildə ən ağlasığmaz yerlərdə basdırılması minatimizləmə əməliyyatlarının həyata keçirilməsini çətinləşdirir. Ermənistan isə Azərbaycanın çoxsaylı müraciətlərindən yayınaraq səhih mina xəritələrini indiyədək ölkəmizə təqdim etməyib. Avropa Parlamenti Azərbaycana qarşı qərəzli qətnamə qəbul etməkdənsə, diqqəti Ermənistanın çoxsaylı müharibə cinayətlərinə çəkməli idi.

*Mübariz Feyizli*

# "Yaşıl binalar"ın Yol Xəritəsi hazırlanır

## Beynəlxalq Maliyyə Korporasiyası "yaşıl tikinti"yə keçid üçün ölkəmizə kömək göstərəcək

Beynəlxalq Maliyyə Korporasiyası (BMK) Azərbaycanda "yaşıl binalar"ın inşası layihələrinə maliyyə dəstəyi göstərməyə razılıq verib. BMK-nın maliyyə mütəxəssisi Leyla Hüseynli Bakıda keçirilən "Dayanıqlı Mikromaliyyə üçün İnnovativ Həllər" konfransında bildirib ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə Korporasiyası arasında imzalanmış anlaşma memorandumuna əsasən, Azərbaycanda "yaşıl binalar"ın inkişafına dair Yol Xəritəsi hazırlanacaq.

Bu istiqamətdə müəyyənləşmiş əməkdaşlıq prioritetlərinə əsasən, BMK ekoloji və təmiz tikinti sahəsində tələb olunan zəruri resurslar və icra mexanizmləri üzrə öz köməyini göstərəcək.

Dünyanın aparıcı institutlarından biri olan Beynəlxalq Maliyyə Korporasiyası son illərdə qlobal iqlim çağırışlarından irəli gələn tələblərə uyğun olaraq öz maliyyə portfelinin əhəmiyyətli hissəsini müxtəlif ölkələrdə "yaşıl inkişaf" layihələrinə yönəltməkdədir. Hazırda investisiya portfeli 43 milyard dollardan çox olan BMK həmin vəsaitlərin 14 milyard dollarını dayanıqlı və "yaşıl maliyyə" sektoruna yönəldib ki, məqsəd dünya ölkələrində aşağı karbonlu enerjiyə keçid çərçivəsində "yaşıl texnologiyalar"ın geniş tətbiqi yolu ilə sənaye layihələrinin sayını artırmaqdır. "Yaşıl bina" və ya "yaşıl tikinti" layihələri də bu strateji konsepsiyanın tərkib hissəsidir.

## "Yaşıl bina"da enerji təchizatı Günəş enerjisi hesabına təmin edilir

"Yaşıl bina" tikintisi, dizaynı, istismarı birbaşa ətraf mühitə mənfi təsirləri azaldan və ya aradan qaldıran texnologiyalar əsasında inşa və idarə edilən layihələrdir. Bu cür layihələrdə ətraf mühitə təsirləri minimuma endirmək üçün material seçimi, enerji istifadəsi, suya qənaət və tullantıların idarə edilməsi kimi amillər diqqətlə planlaşdırılır. Bura, həmçinin binanın layihələndirildiyi yerin seçilməsi, tikintisi, istismarı, təmiri və hətta sökülməsi də aiddir. "Yaşıl tikinti"nin digər məqsədi binaların keyfiyyətinin qorunması və ya artırılması, onların daxili mühitində rahatlığın təmin edilməsidir. Eyni zamanda, bu layihələrdə mənzillərin isidilməsi və enerji təminatı "ağıllı texnologiyalara", bərpa olunan enerji mənbələrinə əsaslanır. Binaların üzərində xüsusi Günəş panelləri quraşdırılır ki, bu da enerji təchizatı günəş enerjisi hesabına təmin edilir.



Dünya ölkələrində davamlı olaraq "yaşıl tikinti" texnologiyaları daim təkmilləşir və onların əsas məqsədi tikilinin ətraf mühitə və insan sağlamlığına ümumi zərərini azaltmaqdır. Mütəxəssislərin hesablamalarına görə, tikinti sektorunun ətraf mühitə təsirləri təxminən avtonəqliyyat vasitələrinin vurduğu zərərə yaxındır. İnşaat sənayesində istifadə olunan texnologiayaların böyük bir qismi ətraf mühitə yanacaq emissiyalarında rol oynayır. Binaların tikintisi zamanı bu cür zərərli emissiyaların təsiri 20 faiz, sonrakı infrastruktur, təminat və enerji təchizatı zamanı isə 40 faiz təşkil edir. Buna görə də, "yaşıl tikinti" layihələrinə keçid qlobal ekoloji alyansın müəyyən etdiyi vacib şərtlərdən biridir.

## 11 tikinti şirkətinin "yaşıl bəyannaməsi"..

"Yaşıl tikini"yə keçid qlobal iqlim alyansının fəal üzvlərindən biri kimi Azərbaycan üçün də gündəlikdə duran əsas məsələlərdən biridir. Ölkəmizin müasir inkişaf gündəliyində ekoloji mühitə zərərlərin azaldılması, dayanıqlı və ekoloji təmiz tikinti texnologiyalarının tətbiqi mühüm yer tutur. Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet istiqamət "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" kimi müəyyən olunub. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub. Həmin tədbirlərdən biri inşaat sənayesi sektorunun ətraf mühitə zərərlərinin azaldılması və karbon emissiyasının azaldılmasının təşviqidir.

Bu məqsədlə tikinti şirkətləri, sənaye avadanlıqları təchizatçıları və maliyyə-bank qurumları bu istiqamətdə birgə fəaliyyət niyyətlərini bəyan edərək "yaşıl hədəf"lər naminə qarşılıqlı əməkdaşlıq sxemlərini müəyyən etməkdədir. İlk müsbət adımlardan biri kimi 2024-cü ilin iyul ayında Azərbaycanda fəaliyyət göstərən 11 tikinti və COP29 Təşkilat Komitəsinin bir neçə üzvü "Dayanıqlı Yaşıl Tikinti Bəyannaməsi" imzalayıb. Bəyannamənin məqsədi tikinti şirkətlərinin emissiyaların azaldılması məsuliyyətinə riayət edərək fəaliyyətlərini "yaşıllaşdırmasıdır".

## Asiya Bankı və Valyuta Fondundan "yaşıl dəstək"...

Tikinti sənayesində müasir ekoloji texnologiyalara əsaslanan fəaliyyət sisteminin qurulması və "ağıllı yaşıl texnologiyaların" tətbiqi böyük sərmayələr tələb edir, sənaye sektorunun yaşıllaşdırılması isə həmin şirkətlərin əksəriyyətinin öz imkanları xaricindədir. Hazırda həmin layihələrin icra olunduğu ölkələrin böyük bir qismi bu sahədə investorlarla birgə əməkdaşlıq edir. Ona görə də, "yaşıl bina" konseptinin icrasında maliyyə qurumlarının, bankların köməyinə ehtiyac var. Bu baxımdam Azərbaycanın maliyyə qurumları, o cümlədən Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlığı qeyd edilən hədəflərin yerinə yetirilməsində mühüm rol oynaya bilər. Yeri gəlmişkən, Asiya İnkişaf Bankı da "yaşıl sənaye" və "yaşıl tikinti" sektorlarında biznesin maliyyə ehtiyaclarını nəzərə alaraq öz donorluğunu artırmağa hazır olduğunu, iqlim dəyişikliyindən əziyyət çəkən sənaye icmasına yeni maliyyə strategiyalarının hazırlanması və həyata keçirilməsinə dəstək verəcəyini bəyan edib. Habelə Beynəlxalq Valyuta Fondu (BVF) da de-karbonizasiya siyasətinin təşviqində ölkələrə maliyyə dəstəyini göstərəcəyini vurğulayıb.

Beləliklə, Azərbaycan hökuməti qlobal çağırışları nəzərə alaraq tikinti sektorunu əhatə edən sənaye şirkətlərini karbon emissiyasından uzaqlaşdırmaq üçün müxtəlif səmərələşdirici addımlar atır, eyni zamanda, sənayenin maliyyə ehtiyaclarını nəzərə alaraq onların xarici institutlarla əməkdaşlığı artırmağa təşviq edən dəstək verir. Bu xüsusda, BMK Azərbaycanda "yaşıl tikinti" prinsiplərinin təşviqində tərəfdaş olaraq bu sahədə icra olunacaq layihələrə öz dəstəyini verəcək. Layihənin icrası sayəsində müsbət nəticələr gözlənilir. Belə ki, ehtimallara əsasən, "yaşıl bina" çərçivəsində innovativ texnologiyaların tikinti sektorunda payının artırılması ətraf mühitə mənfi təsirlərin və CO2 tullantılarının azalmasına əhəmiyyətli dərəcədə töhfə verəcək.

*E.CƏFƏRLİ*

# Sağlamlıq turizmində imkanlarımız...

## Şuşada mühüm konfrans baş tutdu

Bu gün dünya miqyasında sağlamlıq turizminə tələbat artmaqdadır. Bunun əsas səbəbləri insanların keyfiyyətli tibbi xidmətlərə əlçatanlığının təmin olunması, sağlamlıq turizminin müalicə ilə yanaşı, fiziki və əqli yorğunluğun bərpası ilə bağlı xidmətləri yerinə yetirməsidir. Qlobal miqyasda sağlamlıq xidmətlərinin turizm sənayesində payı 10 faizdən çoxdur.

Ölkəmizdə də mövcud olan faydalı, zəngin mineroloji və digər müxtəlif müalicəvi keyfiyyətlərə malik olan təbii resurslar kifayət qədər çoxdur. Bir sözlə, sağlamlıq turizminin inkişafı üçün təbii ehtiyatlarımıza dair hər şey var. Naftalanın müalicəvi nefti, Naxçıvanın duz mağaraları, Abşeron göllərinin müalicəvi palçıq və suları, Lənkəranın, Gədəbəyin mineral suları...

Azərbaycanda turizmin digər sahələri kimi, sağlamlıq turizminin inkişafı ilə bağlı da mühüm tədbirlər həyata keçirilir. Buna misal olaraq dövlət tədbirlərini, ölkə başçısının imzaladığı sərəncamları, dövlət proqramlarını qeyd edə bilərik. Ötən gün Şuşada "Azərbaycan sağlamlıq turizmi: inkişaf imkanları" mövzusunda konfrans keçirilib. Dövlət Turizm Agentliyi tərəfindən keçirilən konfransda Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliklərinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Səhiyyə Nazirliyinin rəsmiləri, Azərbaycandan və bir sıra xarici ölkələrdən sağlamlıq və tibbi turizm sahəsinin 200-ə yaxın mütəxəssisi iştirak edib.




Konfransda "Azərbaycan sağlamlıq turizmi destinasiyası kimi: Cari vəziyyət və imkanlar", "Sağlamlıq turizmində qlobal və uğurlu təcrübələr: Azərbaycan üçün təkliflər", "Azərbaycan tibbi turizmi: Gələcəyə baxış və strategiya" adlı panel sesiyalar nəzərdə tutulub. Həmçinin sağlamlıq turizmi sənaye sərgisi açılıb.

**Qarabağ və Şərqi Zəngəzurda sağlamlıq turizmi imkanları**

Konfransda iştirak edən Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev bildirib ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Türkiyədən olan mütəxəssislərin iştirakı ilə turizm, o cümlədən sağlamlıq turizmi imkanları araşdırılıb və müvafiq təkliflər irəli sürülüb. Onun sözlərinə görə, bu istiqamətdə Kəlbəcərin balneoloji turizm imkanları xüsusilə fərqlənir: "Kəlbəcərdə turizmin inkişafına dair hazırlanmış konsepsiyada təklif edilən beş turizm və rekreasiya zonasından ikisi mineral-termal bulaqlar ətrafında olmaqla sağlamlıq turizmi profilinə malikdir. Bundan əlavə, Laçın da mineral-termal su resursları ilə zəngin olduğundan sağlamlıq turizmi potensialına sahibdir. Şuşa şəhərinin hava-rekreasiya imkanları sağlamlıq turizminin inkişafına töhfə verə bilər".

F.Nağıyev bildirib ki, ölkənin regional və beynəlxalq səviyyədə sağlamlıq turizmi imkanlarının tanıdılması, bu sahədə marketinq fəaliyyətinin təşkili və brendin yaradılması Agentliyin əsas hədəflərindən biridir. O, əlavə edib ki, il ərzində bütün beynəlxalq tədbirlərdə və sərgilərdə Azərbaycanın sağlamlıq turizmi imkanları tanıdılıb: "Ölkənin bu sahədə potensialının artırılması üçün sağlamlıq turizmi müəssisələrinin xidmət keyfiyyətinin yüksəldilməsi və çeşidinin artırılması, müasir sanatoriya və kurort müəssisələrinin idarəetmə təcrübəsinin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir".

**Yeni hesabat hazılanıb**

F.Nağıyev qeyd edib ki, Agentlik "Azərbaycanda Sağlamlıq Turizmi - Cari Vəziyyət və İnkişaf Perspektivləri" adlı hesabat hazırlayıb. Onun sözlərinə görə, sektorun inkişafı ilə bağlı müxtəlif dövlət və özəl qurumların, eləcə də ictimai birliklərin nümayəndələrinin iştirakı ilə işçi qrupu yaradılıb: "Əlavə olaraq, Naftalan neftinin emalı və istehlakına qədər dəyər zəncirinin inkişafı mexanizminin formalaşdırılması üzrə tədbirlər planlaşdırılır. Ölkə Prezidentinin 28 sentyabr 2024-cü il tarixli "Sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamı bu sahədə yeni perspektivlər açır. Naftalan neftinin turizm məhsulu kimi daha da inkişaf etdirilməsi və yeni bazarlarda təşviqi əsas hədəflərdən biridir".

**2025-ci il həlledici il olacaq...**

Dövlət Turizm Agentliyinin Aparat rəhbəri Kənan Qasımov bildirib ki, Azərbaycanda sağlamlıq turizmi üzrə potensial yüksəkdir, lakin keyfiyyət məsələsində bəzi çatışmazlıqlar mövcuddur: "Bu çatışmazlıqların aradan qaldırılması üçün addımlar atacağıq. 2025-ci il sağlamlıq turizmi ilə bağlı həlledici il olacaq".

Onun sözlərinə görə, Azərbaycanda turizmlə bağlı mövsümilik problemi də mövcuddur: "Alternativ turizm növlərinin inkişafı bizə bu problemi həll etməyə imkan verir. Sağlamlıq turizminin imkanlarının araşdırılması ilə bağlı hesabatlar hazırlanır".

K.Qasımov, həmçinin qeyd edib ki, sağlamlıq turizmi ilə bağlı işçi qrupu formalaşdırılır: "Əsas məqsədimiz müxtəlif qurumların ortaq mövqeyini əks etdirən sənəd hazırlamaq və koordinasiyalı fəaliyyət göstərməkdir".

*Yeganə BAYRAMOVA*

# Paris yenə ənənəvi ampluasında...

## Bu dəfə Fransa - Ermənistan parlamentlərarası dostluq qrupunun rəhbəri Jilber-Lyuk Devinaz separatçıların təəssübkeşi rolunda çıxış edib

**Fransa dövlət və cəmiyyət olaraq postmüharibə mərhələsində Azərbaycanla Ermənistan arasında başlayan sülhyaratma prosesinə əngəllər yaratmaq siyasətindən əl çəkmək istəmir. Başda E.Makronun özü olmaqla onun komandasında təmsil olunan yüksəksəviyyəli məmurlar, həmçinin ölkə parlamentinin təmsilçiləri Azərbaycanla Ermənistan arasında başlayan sülhyartma prosesinin ruhuna uyğun olmayan mövqe sərgiləmək üçün sanki yarışa giriblər. Son olaraq bu xüsusda absurd fikirlər səsləndirənlərdən biri də Fransa-Ermənistan parlamentlərarası dostluq qrupunun rəhbəri Jilber-Lyuk Devinazdır. O, növbəti dəfə özünü Qarabağdan könüllü şəkildə Ermənistana köç edən müəyyən sayda ermənininin və hazırda Bakıda dəmir barmaqlıqlar arxasında saxlanılan keçmiş separatçı rejimin cinayətkar rəhbərlərinin təəssübkeşi kimi göstərib.**

### Fransanın anlaşılmaz əndişəsi

Postmüharibə dövründə qalib Azərbaycanın təşəbbüsü ilə başlayan sülhyaratma prosesi son vaxtlarda ikitərəfli formatda irəliləməkdədir. Əslində, müşahidə edilən odur ki, ikitərəfli format danışıqlarda daha səmərəli nəticələr verir. Məlumdur ki, artıq keçmişdə qalan münaqişənin təxminən otuz illik bir mərhələsində danışıqlar ATƏT-in Minsk qrupu formatında aparılıb. Fransanın da təmsil olunduğu bu qrupun fəaliyyətinin nəticəsi sıfır oldu. BMT-nin dörd qətnaməsi kağız üzərində qaldı. Ermənistan işğalçılıq siyasətindən əl çəkmədi və buna görə hər hansı bir sanksiya ilə üzləşməsi. Minsk qrupunun yeganə istəyi işğal məhsulu olan keçmiş status-kvonun sonsuzluğadək saxlanmasına nail olmaqdan ibarət idi. Belə olan halda işğal faktının qarşısını Azərbaycan öz gücü ilə aldı. 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazandığı möhtəşəm qələbələrlə ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına nail olan Azərbaycan həm də tarixi ədaləti, beynəlxalq hüququ təmin etdi. Burada Minsk qrupunun hər hansı bir müsbət rolu olmadı, əksinə qurumda təmsil olunan dövlətlər, xüsusilə də Fransa Azərbaycanın apardığı ədalətli müharibənin qarşısını almaqdan ötrü xüsusi canfəşanlıq göstərirdi.

Gözləmək olardı ki, Fransa müharibədən və lokal xarakterli antiterror tədbirlərindən sonra yaranmış reallıqları qəbul edərək sülhyaratma prosesində geniş təsir imkanlarına malik olduğu Ermənistan iqtidarına məhz bu istiqamətdə məsləhətlərini verəcək. Lakin bu, baş vermədi. Əksinə biz Yelisey Sarayının daha da aqressivləşməsinin şahidi oluruq. İndiki mərhələdə Ermənistanı revanşist mövqeyə çəkənlərin, bu ölkəni yeni müharibəyə təhrik edənlərin başında Fransanın dayandığını qətiyyətlə deyə bilərik. Məhz E.Makronun destruktiv mövqeyinin nəticəsidir ki, bir vaxtlar Azərbaycanın da fəal şəkildə qoşulduğu Brüssel formatı iflasa uğrayıb.

Çoxtərəfli formatlarda hər hansı bir uğura imza atılmadığını görən Azərbaycan ikitərəfli dialoq təşəbbüsünü irəli sürüb. Bu çərçivədə aparılan danışıqlarda konkret nəticələr əldə olunur. Artıq sərhədlərin delimitasiya və demarkasiya olunması prosesinə start verilib, sülh sazişinin əhəmiyyətli hissəsi razılaşdırılıb. Bütövlükdə, iki ölkə arasında münaqişə səhifəsinin bağlanması üçün heç vaxt olmadığı qədər əlverişli şərait yaranıb. Son olaraq oktyabrın 24-də BRICS-in sammiti çərçivəsində Prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyanın vasitəçilər olmadan ikitərəfli görüşü baş tutub. Kazan görüşündə tərəflər ikitərəfli sülh gündəliyinin irəli aparılmasını, o cümlədən sülh sazişini, sərhədlərin delimitasiyası və demarkasiyasını, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

İki ölkənin xarici işlər nazirlərinə Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş üzərində işlərin mümkün tez zamanda yekunlaşdırılması və imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə təlimat verilib.

Bütün bunlar sülhə böyük ümidlər yaradır. Əgər Fransa Ermənistanın gerçək dostudursa, onda sülyaratma prosesinin ikitərəfli formatda irəliləməsinə sevinməli və buna töhfələrini verməlidir. Ancaq biz nə Makron iqtidarından, nə də Fransa parlamentindən belə dost jestlərinin edildiyini görmürük. Əksinə, müşahidə edilən odur ki, Yelisey Sarayı sülhyaratma prosesinin ikitərəfli formatda irəliləməsinə qısqanclıqla yanaşır. Fransanın indiki həssas dönəmdə bir tərəfdən Ermənistanı revanşizmə çəkməsi, digər tərəfdən isə Azərbaycana hansısa yollarla təzyiqlər göstərməyə çalışması, Jilber-Lyuk Devinaz kimi parlamentarilər vasitəsilə qarayaxma kampaniyası aparması əslində, yanan odun üstünə yağ tökmək, arzuolunmaz hadisələrə rəvac verilməsi anlamına gəlir. İkitərəfli dialoq ümidlər artdığı bir vaxtda Fransanın əndişələnməsinin məntiqi başa düşülmür. Sual olunur: Yelisey Sarayı belə qızışdırıcı mövqeyindən nə vaxt geri çəkiləcək? Makron, nəhayət, anlamalıdır ki, o, sülhyaratma prosesində hansısa bir rol ala bilməyəcək.



### Erməni yançısı Devinaz, sənin ədalət hissin, obyektivliyin heçmi yoxdur?

Əvvəlcə Fransa-Ermənistan parlamentlərarası dostluq qrupunun rəhbəri Jilber-Lyuk Devinazın lokal xarakterli antiterror tədbirlərindən sanra Qarabağdan Ermənistana könüllü şəkildə köç edən ermənilərin və zamanında Xankəndidə yaradılmış oyuncaq rejimin rəhbərlərinin təəssübünü çəkməsinin motivlərinə diqqət çəkək. Parlamentarinin erməni sevdası haradan və nədən qaynaqlanır? Birmənalı şəkildə deyə bilərik ki, əksər Fransa siyasətçilərində olduğu kimi, Devinazın da ermənilərə münasibətdə özünü həddsiz dərəcədə təəssübkeş kimi göstərməsi Fransadakı erməni lobbisi ilə çirkin işbirliyindən qaynaqlanır. Fransada təxminən 500 minlik erməni icması var. Ölkənin müxtəlif strukturlarında özlərinə yer edən və yaxşı gəlir imkanlarına malik olan ermənilər burada sistemli fəaliyyətlər həyata keçirirlər. Türkofobiya və Azərbaycanofobiya bu fəaliyyətin mərkəzində dayanır. Erməni lobbisi Türkiyəyə və Azərbaycana qarşı çirkin planlarını həyata keçirməkdən ötrü müxtəlif vasitələrə əl atır, o cümlədən də siyasətçiləri şirnikləndirici vədlərlə, onları seçkilərdə dəstəkləməklə ələ alır. Yelisey Sarayının Makron başda olmaqla əksər təmsilçiləri kimi, Devinaz da belə siyasətçilərdəndir. O da erməni lobbisinin hərtərəfli dəstəyinin müqabilində Azərbaycana qarşı qurulan çirkin planlarda məmnuniyyətlə yer alır. Qeyd edək ki, o, əvvəllər də Azərbaycana qarşı qərəzli çıxışları və açıqlamaları ilə vaxtaşırı gündəmə gəlib. Xatırlayaq: Devinaz hələ 2018-ci il sentyabrın 14-də erməni qurumun "parlament rəhbəri" Aşot Qulyanı qəbul etmişdi. Görüşdə separatçılarla "ikitərəfli ələqələrin" inkişafından bəhs olunmuşdu.

İndi isə Fransa parlamentinin təmsilçisi erməni lobbisindən və Yelisey Sarayından gələn sifarişlərə uyğun olaraq noyabrın 11-də COP29-a ev sahibliyi edəcək Azərbaycanın guya "etnik təmizləmə planını" cəzasız davam etdirdiyini bildirib. Bakıda həbsdə olan separatçıları "siyasi xadim" adlandırıb, habelə Qarabağda guya "erməni irsinin məhv edilməsindən" danışıb. Erməni yançısı Devinaz, sənin ədalət hissin, obyektivliyin heçmi yoxdur?

Əslində, Devinaz yeni heç nə demir. Bu, Ermənistan - Makron xorunda çalınan köhnə mahnıdır və revanşistlərin, Yelisey Sarayının, Senatın ayrı-ayrı təmsilçilərinin dilindən dəfələrlə eşidilib. Burada, Yelisey Sarayına və Devinaz kimi parlamentarilərə bir neçə zəruri xatırlatma etmək yerinə düşər:

Birincisi, Azərbaycan suveren dövlətdir və suveren dövlətin daxili işlərinə qarışmağa Fransanın və bu ölkənin parlamentinin hansısa bir səlahiyyəti yoxdur. Bəli, biz bilirik ki, Fransa müstəmləkə və sümürmə siyasətindən əl çəkməyən bir dövlətdir. Ancaq Azərbaycan da milli iradəsi və özünü müdafiə etməyə qürəti çatan ölkədir, onunla heç kim diktat dili ilə danışa bilməz. Belə münasibətlər və yanaşmalar Bakıda qəbul olunmur. Qoy Yelisey Sarayı və Senat ünvanı səhv salmasın!

İkincisi, Devinaza bir daha xatırladırıq ki, erməniləri Qarabağdan heç kim qovmayıb, onlar könüllü və çox rahat şəkildə Ermənistana köç ediblər. Bizim yeganə qanuni tələbimiz ermənilərin Azərbaycan vətəndaşlığını qəbul etmələri zərurəti ilə bağlı idi. Ermənilər bunu istəmədilər və köç etməyi üstün tutdular ki, bu da onların hüququdur. Azərbaycan siyasətində beynəlxalq hüquqa, eləcə də ədalət və humanizm prinsiplərinə əsaslanan dövlətdir. Ölkəmizin qapıları yenə də müvafiq şərtlərlə Azərbaycana qayıtmaq istəyən ermənilərin üzünə açıqdır.

Üçüncüsü, Devinaz "mədəni irs" məsələsində kobud yanlışlığa yol verir. Qarabağda vandalizm əməllərinə tuş gələn erməni abidələri yox, Azərbaycanın tarixi mədəni-dini irsidir. İşğal illərində ermənilər xalqımıza məxsus olan 67 məscidi dağıdıblar, dini abidələrimizi, qəbiristanlıqlarımızı təhqir ediblər. Postmüharibə mərhələsində isə Qarabağda istər İslam dininə, istərsə də xristianlığa aid olan bütün abidələr bərpa olunur. Bu, tarixi-mədəni irsə Azərbaycanın multikultural yanaşmasıdır.

Dördüncüsü, Devinaz separatçı rejimin hazırda Bakıda saxlanılan rəhbərlərini "siyasi məhbus" adlandırdıqda ciddi şəkildə siyasi səhvə yol verir. Barələrində istintaq prosesi başa çatan həmin şəxslər zamanında dövlət cinayətlər törədiblər, Azərbaycanın Konstitusiya quruluşuna qarşı çıxıblar, Gəncə və digər şəhərlərimizə qadağan olunmuş raketlər atılmasına birbaşa göstəriş veriblər, bununla da çoxlu sayda mülki vətəndaşımızın ölümünə bais olublar. Əgər Devinaz müstəqil siyasətçidirsə, erməni lobbisindən, siyasi hakimiyyətdən asılı deyilsə və əlbəttə ki, vicdanı varsa, etiraf etməlidir ki, bütün bunlar "siyasi məhbus" anlayışı ilə tamam ziddiyyət təşkil edir.

Nəhayət, Devinaz kimi parlamentarilərə zəruri xatırlatma etmək istərdik. Qarabağdan köç edən ermənilərin, separatçıların təəssübünü çəkən siyasətçi gərək məlum fikirlərini dilə gətirərkən zamanında Qərbi Azərbaycandan - indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların da geri qayıtmaq hüququnu tanıdığını bildirməli idi. Burada Devinaz üçün vacib bir P.S. də yerinə düşər: Təkrar edirik, ermənilər Azərbaycan ərazisini könüllü və rahat şəkildə tərk ediblər. Azərbaycanlılar isə doğma yurd-yuvalarından zorla çıxarılıblar...

*Mübariz ABDULLAYEV*


The Washington Post

For virus, a closing window of containment

Support for democratic socialist comes from nearly every demographic group | Biden notches a distant second place; Buttigieg and Warren finish far back

Sanders dominates in Nevada

As surging Sanders builds delegate lead, Democrats' down-ballot worries intensify

Faded records tell Virginia's story of school segregation

ISIS and al-Qaeda join forces in West Africa

# Son 36 ildə ilk dəfə...

## "The Washington Post" niyə geri çəkildi?

**ABŞ-da keçiriləcək prezident seçkilərinə bir həftə qalmış namizədlər son görüşlərini keçirirlər. Respublikaçıların namizədi Tramp son görüşlərini mərkəz ştatlara yönləndirib - eks-prezident Nyu-Yorkda izdihamlı mitinq keçirib. Tramp Manhettenin mərkəzində yerləşən məşhur Madison Square Garden arenasında baş tutan mitinqdə çıxış edərək bildirib ki, seçkilərdə qalib gələcəyi təqdirdə dünya tarixində ən böyük iqtisadiyyatı quracaq: "Son prezidentlik dönəmimdə də belə idi - biz inflyasiyaya tez bir zamanda qalib gələrək, sadəcə olaraq, Amerikanı yenidən əlverişli hala gətirəcəyik". Mitinqdə, həmçinin seçkidən kənarda qalan və Trampı dəstəkləmiş prezidentliyə keçmiş müstəqil namizəd Robert Kennedi, eləcə də, Vladimir Putindən müsahibə alan siyasi şərhçi -jurnalist Taker Karlson da çıxış ediblər. Qeyd edək ki, Nyu-York Demokratlar Partiyasının "qalası" hesab olunur - bu şəhərdə respublikaçı namizədin sonuncu dəfə dəstəklənməsi 1984-cü ilə təsadüf edir. Bununla belə, "ikinci paytaxt" Tramp üçün də doğmadır - o, biznesinə burada başlayıb və hələ də onun qərargahı olan "Trump Tower"i məhz Nyu-Yorkda inşa etdirib.**

## Faşist ittihamı...

Trampın Madison Square Garden - də keçirilən mitinqi böyük qalmaqalla müşayiət olunub. Tədbirdə çıxışlar zamanı bəzi etikadan kənar ifadələr işlədilib ki, demokratlar bundan antipiar kimi istifadə etməyə başlayıblar. Tədbirin açılışında çıxış edən peşəkar güləşçi Halk Hoqan və Nyu-York şəhərinin keçmiş meri Rudy Culianinin Kamala Harris haqqında "terrorçuların tərəfində" olduğu ittihamını səsləndirməsi qarşı tərəfdə qəzəb yaradıb - bu səbəbdən də, bəzi demokratlar Trampın tədbirini 1939-cu ildə Madison Square Gardendə keçirilmiş nasist mitinqi ilə müqayisə ediblər. Bundan öncə Atlantada keçirilən mitinqdə Tramp Harrisi "faşist" adlandırmışdı. O bildirmişdi ki, rəqibi ölkənin yarıdan çoxunu düşmən, faşist və nasist adlandırır: "Ancaq o, faşistdir. Oldu? O, faşistdir".

## Kim kimi dəstəkləyir?

Bu arada namizədlərə verilən dəstəklər davam edir. Bilindiyi kimi, Trampı dəstəkləyənlər arasında daha çox milyarderlər "gözə dəyir". Respublikaçı namizədi 49 milyarder dəstəkləyir. "Forbes" yazıb ki, Tramp əsasən ABŞ-nin sənaye maqnatlarından, o cümlədən "Crown Quest Operating" neft-qaz şirkətinin baş direktoru Timoti Dunn, ABŞ-nin "Home Depot" pərakəndə satış şəbəkəsinin həmtəsisçisi Harold Hamm tərəfindən geniş dəstək alır.

Trampın ən fəal dəstəkçisi ixtiraçı milyarder İlon Mask isə onun prezident seçkilərində qalib gəlməsi halında federal xərclərin ən azı 2 trilyon dollar azaldılacağını açıqlayıb. "Mən təxminən 2 trilyon dollar düşünürəm. Bu, vergilərə aiddir; istər birbaşa, istərsə də dolayısı ilə pulunuz boşa gedir," - deyə Mask, Madison Square Gardendə Tramp tərəfdarları qarşısında çıxış edərkən bildirib.

Xatırladaq ki, Trampın seçki kampaniyasına 119 milyon dollar kömək etdiyi vurğulanan Maskdan yeni hökumətdə Səmərəlilik Departamenti (DOGE) adlı quruma rəhbərlik etməsi istənilib.

Harrisin dəstəkçiləri arasında isə sənətçilər diqqət çəkir. "Associated Press" xəbər verir ki, Kamala Harrisin ötən cümə günü Hyustonda baş tutmuş kampaniyasının ən böyük mitinqində pop ulduzu Beyons iştirak edib. Hollivud aktyorları Robert De Niro və Leonardo Di Kaprio da Demokratların namizədinin tərəfdarı olduqlarını bəyan ediblər. Hazırkı vitse-prezidentin dəstəkçiləri arasında Emmi mükafatı laureatı Kerri Vaşinqton, aktrisa Tessa Tompson, rejissor Stiven Spilberq və aktyor Brayan Tur Henri də var.



## "The Washington Post" imtina etdi...

ABŞ-ın siyasi dairələrində seçkinin nəticələri ilə bağlı hələ də yekdil rəy formalaşmayıb. Maraqlıdır ki, əvvəlki prosesdə daha aktiv olan media susur. Əvvəlki seçkilərdən fərqli olaraq bu dəfə öncədən proqnoz səsləndirmək çətin hesab olunur - "The Washington Post" nəşri isə son 36 ildə ilk dəfə olaraq prezident seçkisində hansısa namizədi dəstəkləməkdən imtina edib. Bu barədə qəzetin icraçı direktoru Uilyam Lyuis bildirib. Onun sözlərinə görə, qəzet gələcəkdə olacaq prezident seçkisi ilə bağlı da analoji mövqedən çıxış edəcək. Lyuis habelə deyib ki, belə bir imtina ilə "The Washington Post" oxucuların namizəd seçimi ilə bağlı qərarlarını sərbəst vermək qabiliyyətinə inam ifadə etmək istəyib. Əlavə edib ki, nəşrin işi - oxucuları qərəzsiz xəbərlərlə təmin etmək, onları düşündürən, nəticə çıxaran materiallar dərc etməkdir.

Qeyd edək ki, qəzet 1877-ci ildə Stilson Hatçins tərəfindən yaradılıb. 6 dekabr 1877-ci ildə 10 min nüsxə tirajla nəşr olunmağa başlayan nəşr hazırda ara günləri 550, istirahət günləri isə 800 minə yaxın tirajla dərc olunur. 1960-cı illərdən 1980-ci illərə qədər qəzet tez-tez ABŞ rəhbərliyinin siyasətini solçu mövqedən tənqid edirdi. Qəzet ilk dəfə 1952-ci il seçkilərində namizəd Duayt Eyzenhauerə səs verməyi təklif edib və onu dəstəkləyib. 1976-cı ildən isə namizədlərə açıq dəstək verilməsi ənənəsi daha da möhkəmlənib. 2024-cü ildə müşahidə olunan "bitərəflik" yeganə bir seçkidə - 1988-ci il "ata" Buş hakimiyyətə gələn zaman sərgilənib. Qəzetin redaksiya siyasəti isə Demokratlar Partiyasının tutduğu mövqelərə yaxın hesab edilir.

Bir sıra siyasi mütəxəssislər qəzetin belə bir addım atmasını hazırkı prezident Baydenin uğursuz siyasi kursu ilə əlaqələndirir. Baydenin apardığı siyasətin elan etdiyi hədəf və prinsiplərlə uyğun gəlmədiyi qənaətində olan qəzet Harrisi dəstəkləyəcəyi təqdirdə ənənəvi oxucularından məhrum olma təhlükəsi yaşaya bilər. Bu faktı demokratların hazırkı namizədi ilə də əlaqələndirənlər tapılır - belə ki, Harrisin kifayət qədər geniş publikaya malik olmaması, ictimai rəydə birmənalı qarşılanmaması və reputasiyasının Trampdan geri qalması qəzeti "geri" addım atmağa məcbur edib...

***P.İSMAYILOV***

# Fransanın müstəmləkəçilik siyasəti davam edir...

**Özünün neokolonialist ənənəsindən əl çəkməyən Fransanın Yeni Kaledoniya və digər ərazilərdə törətdiyi qeyri-qanuni hərəkətlər yaşadığımız əsrin azadlıq çağırışları ilə üst-üstə düşmür. Paris yüzilliklər öncə işğal etdiyi torpaqlarda yaşayan insanların azadlıq tələblərinə məhəl qoymur, XXI əsrin birinci rübünün yekununda hələ də insan hüquqlarını kobud şəkildə pozur, özünün sümürgəçi mahiyyətindən əl çəkmir və beynəlxalq hüquq kodekslərini tanımaq istəmir. Bu gün Yeni Kaledoniyanın, Korsikanın və digər dənizaşırılarının timsalında Fransanın və ümumən Qərbin insan hüquqlarına münasibətini kodlaşdırmaq mümkündür. Bir sözlə, Fransa sərhədlərindən minlərlə kilometr aralıda - keçmiş müstəmləkələrində, konkret olaraq Yeni Kaledoniya, Mayot adaları, Fransız Qvianası və s. bölgələrdə milli azadlıq hərəkatlarını, müstəqillik çağırışlarını qan içində boğur.**

## Fransızlar kanak fəallarını həbs edir, girov götürürlər...

Son dövrlərdə yenidən polis zorakılığı ilə Kaledoniyada öz maraqlarını təmin etməyə çalışan Fransa minlərlə insanın hüquqlarını pozdu, qanunları tapdadı. Fransanın müstəmləkəçilik siyasətinə qarşı çıxan Kanak xalqı isə yenə də diskriminasiyaya məruz qoyuldu - öz hüquqlarını tələb edən insanlar polis zorakılığı ilə üz-üzə qaldı, onlarla aksiya iştirakçısı saxlanıldı, toqquşmalar nəticəsində onlarla şəxs yaralandı, hətta öldürüldü. Bölgədə etiraz hərəkatını yatırmaq üçün 11 fəal həbs edilib və hazırda da girov kimi Fransada saxlanılır. Onların arasında Yeni Kaledoniyanın müstəqillik tərəfdarlarının lideri Kristian Ten də var. Numea şəhərində saxlanılaraq dindirilən digər 10 nəfər barədə də oxşar qərar qəbul edilib. Onlara qarşı konkret hansı maddələrlə ittiham irəli sürüldüyü açıqlanmır. Lakin istintaq cinayətkar birlik yaratma, quldurluq və vəzifəli şəxsləri öldürməyə cəhd faktları üzrə aparılır. Həbs olunanlardan Yeni Kaledoniya Konqresinin katibliyinin direktoru, xanım Frederik Muliava istintaq müddətini Klermon-Ferrandakı həbsxanada keçirir - həbs olunanlar arasında hərəkatın lideri Kristian Tenlə yanaşı, Brenda Vanabo, Frederique Muliava, Guillaume Vama, Joel Tjibaou, Yeva Vaetheane, Stev Une, Dimitri Tein Qenegei, Gilles Joredie var. Öldürülən şəxslər isə Rok Viktorin Vamytan və Nasaie Daoukadır. Bu adlar Fransanın şqeyri-insani davranışlarının, kolonialist mahiyyətinin faktoloji sübutlarıdır...




## Yeni Kaledoniyanın azadlıq istəyi niyə eşidilmir?

Bəli, Fransanın mahiyyəti budur - etirazlara qulaq vermək, dinləmək, bu problemlərin həlli ilə bağlı əməli fəaliyyət nümayiş etdirmək və azadlıq tələb edən insanların seçiminə hörmət etmək əvəzinə onlar zorakılığa əl atırlar - adi fakt, Kaledoniya ilə bağlı problem illərdir ki, davam edir. Xatırladaq ki, bu ərazi Fransanın Sakit okeanda yerləşən xüsusi inzibati-ərazi qurumu sayılır. Sakit okeanın cənub-qərb hissəsində, Melaneziyada eyni adlı böyük bir ada və bir qrup kiçik ada ilə təmsil olunan Yeni Kaledoniya cənub-qərbdə Avstraliyanın iqtisadi zonası, şimalda Vanuatu və cənub-şərqdə Fici ilə həmsərhəddir, paytaxtı Noumea şəhəridir. Fransa 1853-cü ildən Yeni Kaledoniya adalarına sahib olduğunu iddia edir və 1864-cü ildən 1896-cı ilə qədər Fransa hökuməti ən ağır

## Zorakılıq, qəsb və insan hüquqlarının məhdudlaşdırılması...

cinayətlərə görə məhkum edilmiş cinayətkarları bu koloniyaya göndərib, oranı özünün "məskəninə çevirib". XIX əsrin sonundan bu günə qədər isə adanın mineral ehtiyatları Paris tərəfindən qəsb olunur - nikel, kobalt, xrom, dəmir, manqan, qızıl, qurğuşun və s. kimi bahalı mineral birləşmələr Fransanın "himayəsində" dünya bazarına çıxarılır. 1946-cı ildə Yeni Kaledoniya Fransanın xaricdəki ərazisi "statusu" qazanıb - 1980-ci və 1990-cı illərin əvvəllərində adaya müstəqilliyin verilməsi şüarı altında aborigen əhali (melaneziyalılar) tərəfindən təşkil edilmiş üsyanlar başlayıb. 1987-ci ilin sentyabrın 13-də Yeni Kaledoniyanın müstəqilliyi ilə bağlı ilk referendum keçirilib. İlk referendum Fransanın təqibləri və hədələri ilə baş tutmur - seçicilərin cəmi 59 faizi səsvermədə iştirak edir. Seçkiyə gələnlər isə güclü təzyiqə məruz qalırlar. 1998-ci ildə imzalanan Noumea Sazişinə görə isə 20 ildən sonra ərazinin sakinləri iki il fərqlə müstəqillik məsələsi ilə bağlı üç referendum keçirmək hüququ əldə edir. Amma Fransa yenə də özünün imperialist siyasətini fərqli istiqamətlərdə ortaya qoyur - həmin siyasət bu gün də davam etdirilir. Məsələn, Bakı Təşəbbüs Qrupunun (BTQ) icraçı direktoru Abbas Abbasov "Fransanın dənizaşırı ərazilərində insan hüquqlarının pozulması haqqında hesabat"ın təqdimatına həsr olunmuş mətbuat konfransında bildirib ki, Fransa Yeni Kaledoniyada elektoratı süni şəkildə artırıb öz xeyrinə istifadə etmək istəyirdi. Keçirilən aksiyaların bu prosesin baş verməməsinə müsbət təsiri oldu. O bildirib ki, Fransa Yeni Kaledoniyaya qoşun yeridərək əsassız şəkildə komendant saatı tətbiq edir. A.Abbasovun sözlərinə görə, Sakit okeanda Fransanın ordu saxlaması da bu ölkənin geostrateji məqsədinə xidmət edir. "Yeni Kaledoniyadakı aksiyaların 3-5 ildən sonra müsbət nəticələrinin şahidi ola bilərik. Bakı Təşəbbüs Qrupunun fəaliyyəti, Fransanın sərt şəkildə tənqid olunması da bu prosesə müsbət təsir edəcək", - deyə BTQ-nin icraçı direktoru vurğulayıb.



## "Sarı jiletlilər" hərəkatı: qəsbkar hakimiyyətə qarşı mübarizə...

Vurğulandığı kimi, Fransanın mövcud hakimiyyətinin yürütdüyü qeyri-standart siyasət bütün sferalarda etirazla qarşılanır. Bu tək işğal edilmiş dənizaşırılara münasibətdə özünü göstərmir - daxili auditoriya da Makron hakimiyyətinin yarıtmaz siyasətinə qarşı qəti mübarizə aparır. Yeni Kaledoniyada olduğu kimi Fransada da bu etirazlar vəhşicəsinə, qeyri-insani, zorakı yollarla yatırılır, insanlar kütləvi şəkildə həbs edilir, döyülür, işgəncəyə məruz qalır, hətta öldürülürlər. Məsələn, 2018-ci ildən hakimiyyətin qəsbkar siyasətinə etiraz edən "sarı jiletlilər" hərəkatı ölkənin daxilindəki qanunsuzluğa, özbaşınalığa qarşı çıxırlar. "Sarı jiletlilər"in hakimiyyət qarşısında qoyduqları 25 bəndlik tələbə nəzər saldıqda Makron hakimiyyətinin öz xalqı ilə də quldarlıq qanunları ilə davranması həqiqəti ortaya çıxır. Məsələn, bu tələblər toplusunun altıncı bəndində göstərilir ki, hakimiyyət xalqın ayağına qondarma borclar yazır - tələb isə ondan ibarətdir ki, həmin uydurma daxili borclar ləğv edilsin. Tələbnamənin 23-cü bəndi isə Fransanın Afrika ilə "münasibətlərinə" həsr olunur: "Soyğunçuluq siyasətini dayandırın, hərbi və siyasi müdaxiləni dayandırın. Diktatorların qanunsuz qazanclarını və mülklərini Afrika xalqına verin. Fransız qoşunlarını dərhal ölkəyə qaytarın. Afrika ölkələrinin valyuta ehtiyatlarını Fransanın mərkəzi bankında saxlanması tələbi aradan qaldırılsın".

Fransa hakimiyyəti etiraz edən xalqın səsinə qulaq asmaq əvəzinə yenə də zorakılığa əl atır - 2018-ci il aksiyalarında minlərlə insan polis dəyənəyi ilə "mükafatlandırıldılar", minlərlə aksiya iştirakçısı həbs olundu, hətta onlarla insan qarşıdurmalarda həyatını itirdi. Təkcə 2019-cu ilin dekabrında baş tutan aksiyalarda 10 minə yaxın insan iştirak edirdi ki, onun da böyük hissəsi Paris şəhərindən idi. Etirazlar bu gün də lokal səviyyədə davam edir. Hakimiyyətin yarıtmaz maliyyə siyasəti və mütəmləkəçilik həvəsi daxili sferada sabitliyin yaranmasına ən böyük maneə sayılır...

## SOS: Dənizaşırılarının tarixi təhrif edilir...

Paralel olaraq eyni zorakı və işğalçı davranış digər dənizaşırılarında da müşahidə olunur - Qvadelupanın Azadlığı uğrunda Xalq Birliyi Partiyasının (UPLG) baş katibinin müavini Floran Ali Meril "Fransanın dənizaşırı ərazilərində insan hüquqlarının pozulması haqqında hesabat"ın təqdimatına həsr olunmuş mətbuat konfransında bildirib ki, 1960-cı ildə Fransadan gələn fransızlara görə maaşlarımız azaldı. Amma onların maaşı 40 faiz artdı. Bu, iqtisadi bərabərsizlik, qərəzli münasibət və ayrı-seçkiliyin nəticəsi idi. Turizm və kənd təsərrüfatı kimi sahələrdə işçi qüvvəsinin böyük hissəsi yerli qaradərili əhali olsa da, qərar qəbul edən mövqelərdə fransız mənşəli insanlar daha çox təmsil olunurlar. Müstəmləkə altında olan heç bir xalqın inkişaf edə bilmədiyini vurğulayan UPLG baş katibinin müavini əlavə edib: Fransa qaradərililərə qarşı hələ də qərəzli münasibət göstərir. Hökumət və yerli idarəetmə qurumları irqçilik və ayrı-seçkiliyə qarşı mübarizə aparmaq üçün tədbirlər görmür. Bizim məktəblərdə hələ də fransızların bir qolu olduğumuzu öyrədirlər. Fransız təhsil sistemi və mədəni siyasətləri bəzən yerli mədəniyyətlərin və dilin kənarda qalmasına səbəb olur. Ona görə də burada yerli mədəniyyətin inkişafından söhbət gedə bilməz. Bu, mədəniyyətin qorunması və təhsil hüququ baxımından bərabərsizlik kimi qəbul edilir".

## Aİ niyə "gözünü" yumur, "qulağını" bağlayır...

Paradoks isə burasındadır ki, istər Kaledoniyanın azadlıq çağırışlarının vəhşicəsinə boğulmasını, istərsə də Fransanın daxilindəki etiraz səslərinin həbs və qətllərlə qarşısının alınmasını özünü "demokratik dünya" adlandıran strukturlar sükutla "qarşılayırlar". Müstəqil ölkələrə qarşı qeyri-hüquqi qətnamələr və aktlar qəbul edən Avropa İttifaqı və onun insan hüquqları komissarlığı nədəndirsə, Fransaya münasibətdə kor, kar və lal olur. Proseslərə nəinki adekvat cavab verilmir, hətta adi reaksiya belə nümayiş olunmur. Bəzi hallarda yerli əhali günahkar çıxarılır - məsələn, bir sıra ali komissarlar Yeni Kaledoniyanın paytaxtı Noumeada aksiyalarda azı 3 yerli kanak gəncinin öldürülməsində yerli aborigenləri təqsirli biliblər. Onların fikrincə, aksiyalar zamanı ölənləri polis deyil, yerli mülki müdafiə qüvvələri güllələyib. Bu isə Qərbin "ədalət hissini" tam itirdiyini deməyə əsas verir...

***P.İSMAYILOV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# Ali təhsil müəssisələrində tədris proqramı...

## Dərs yükü çoxdur!

Ali məktəblərdə tədris proqramları həddindən artıq ağırdır. Bu, təbii olaraq tələbələri narahat edən məsələlərdən biridir. Belə ki, onlar dərs yükünün çox olduğu üçün ixtisas fənlərinə az vaxt ayırdıqlarını söyləyirlər. Yalnız tələbələr deyil, təhsil ekspertlərinin də böyük əksəriyyəti onların ixtisas baxımından lazımsız fənlərlə yükləndiyi qənaətindədirlər.

Etiraf edək ki, universitetlərdə tələbələrə ixtisasdan kənar fənlərin keçirilməsi onların gələcək iş həyatına mənfi təsir göstərə bilər. Çünki onların ixtisaslarına xüsusi töhfə verməyən bu fənlər həm vaxtın səmərəsiz istifadəsinə səbəb olur, həm də keyfiyyətli təhsil almanın qarşısında bir maneə yaradır.

Məlumdur ki, dərs ilinin əvvəlində tələbələrə semestr ərzində keçiriləcək fənlərin cədvəli

## Çıxış yolu nədir?

təqdim olunur. Tələbələr isə yeni dərs ili başlayandan bir neçə ay sonra cədvəldə olmayan fənlərin tədris olunduğunu iddia edirlər. Sözügedən məsələ ilə bağlı universitet rəhbərliklərinin cavabı belədir: Nazirlər Kabineti (NK) “Ali təhsil müəssisələrində yeni tədris planı”nı təsdiqləyir və tədris proqramlarının tərtibini Elm və Təhsil Nazirliyinə tapşırır. Ona görə də həmin plana uyğun olaraq yeni fənlər tədris proqramına salınıb.

Məlumat üçün bildirək ki, NK “Ali təhsil müəssisələrində bakalavr və magistr pilləsi üzrə tədris planı”nı sonuncu dəfə 2020-ci ildə təsdiqləyib. Bununla bağlı Elm və Təhsil Nazirliyinin 9 iyul 2020-ci il tarixli qərarı var.

## Universitetlərə tam müstəqillik verilməlidir...

Ali təhsil məsələləri üzrə ekspert Vüsal Kərimli “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, universitetlərdə bakalavr və magistr pilləsi üzrə tədris edilən əlavə fənlər NK-nin təsdiqi ilə Elm və Təhsil Nazirliyinə göndərilir. Ekspertin sözlərinə görə, ali məktəblər ixtisasla bağlı tədris proqramına yalnız 30 faiz fənn əlavə edə bilərlər: “NK ali məktəblərdə tədris planını 3-5 ildən bir təsdiqləyir. Ancaq universitetlər öz tədris planını hazırlamalı, ciddi rəyləri nəzərə almaqla, əmək bazarının və günün tələblərinə uyğun olan fənləri proqrama salmalıdırlar. Bu sahədə ciddi boşluqlar var. Diqqət etsək görərik ki, coğrafi-iqtisadi regionlarımız var və bu regionlarda standart olaraq eyni tədrisin aparılması bəzi çətinliklər yaradır. Fikrimcə, universitetlərə öz tədris planını hazılamağa tam müstəqillik verilməlidir”.

## “Dəyişikliyə hazırıqsa, bunu edək”

Təhsil üzrə ekspert Nadir İsrafilovun sözlərinə görə, orta məktəbin vəzifəsini ali məktəbə, ali məktəbin vəzifəsini isə orta məktəbə yükləmişik. Ona görə də bu kimi problemlərlə üzləşirik: “İstəsək də, istəməsək də, “Ali məktəbə qəbul olan tələbələrin ixtisasdan kənar əlavə fənləri keçməsinə ehtiyac varmı?” sualı ətrafında düşünmək zərurəti qarşısında qalmışıq. Tədris proqramının çox ağır olduğu, bəzən ixtisasa aid olmayan fənlərin tədris olunması təkcə ali məktəblər üçün xarakterik olmayıb. Belə bir vəziyyəti elə orta məktəblərə də şamil etmək olar. Bunu təkcə tələbələr deyil, təhsil mütəxəssisləri, nazirlik rəsmiləri də dəfələrlə etiraf ediblər. İş o yerə çatıb ki, Elm və təhsil naziri Emin Əmrullayev də Təhsilin İnkişafı Forumu çərçivəsində təşkil edilmiş “Biliyi dəyərə çevirən sinerji” adlı paneldə çıxışı zamanı bildirdi ki, “Ali təhsil müəssisələrində o qədər fənn var ki, onlar keçirilməməlidir. Əgər dəyişikliyə hazırıqsa, bunu edək”.

Nazirin dediyində müəyyən həqiqət var. Ancaq, “dəyişikliyə hazırıqsa, bunu edək” etirafı bir qədər mücərrəd görünür və “niyə hazır deyilik, hazır olmaq üçün nə etməliyik?” kimi suallar doğurur. Orta məktəb belədir ki, oradakı fənlər ümumtəhsil fənləridir və orta məktəbin vəzifəsi ixtisaslı kadrlar hazırlamaq yox, ümumi dünyagörüşünə malik, şəxsiyyət yönümlü vətəndaş hazırlamaqdır. Ancaq, ali məktəblər ixtisaslı kadr hazırlayırlar. Buna görə də ona gələcək peşəsində lazım ola biləcək fənlərin keçilməsi daha doğrudur. Orada elə fənlər var ki, tələbənin onunla bağlı hələ orta məktəbdən ümumi təsəvvürü var və lazımi məlumatları başqa mənbələrdən də öyrənə bilər”.

## Qeyri-ixtisas fənləri sıradan çıxarılmalıdır

Təhsil üzrə ekspert Elçin Əfəndinin sözlərinə görə, həqiqətən də tədris proqramında bəzi fənlər artıqlıq təşkil edir: “Ali təhsildə əsas istəyimiz odur ki, tələbələrə konkret olaraq ixtisas fənləri tədris olunsun. Tələbələr ixtisaslarından əlavə fərqli fənləri keçməsinlər. Belə olduqda hətta ali təhsilin müddətini 4 il yox, 3 ilə qədər endirə bilərik. Çünki fənlərin say çoxluğu və əlavə olaraq ixtisasdan kənar fənlərin tədrisi təhsil müddətini ən azı 1 ilə qədər uzadır. Hər semestrdə lazımsız fənlər çıxarılsa və yalnız ixtisas fənləri olsa, bakalavr pilləsi üçün təhsil müəddəti azala bilər. Bu zaman tələbə öz ixtisası üzrə peşəkar mütəxəssisə çevrilə bilər. Düzdür, Parlamentin Elm və Təhsil Komitəsi tərəfindən “Ali təhsil haqqında” qanunvericilik layihəsi hazırlanır. Düşünürəm ki, bu məqam qanunvericilikdə öz əksini tapmalıdır.



Qeyri-ixtisas fənləri sıradan çıxarılmalı, yalnız ixtisas fənləri keçirilməli və tədris müddəti bakalavr pilləsi üçün 3 ilə endirilməlidir”.

## Tələbələrə dəyən maddi və mənəvi zərər...

Ekspert qeyd edib ki, qeyri-ixtisas fənləri tələbələr üçün çətinlik yaradır: “Bəzi hallarda qeyri ixtisas olduğu üçün tələbələr həmin fənnə ciddi yanaşmırlar və kəsrlər yaranır. Nəticədə tələbə məcbur qalıb kredit borcu ödəyir və yaranmış kəsrə görə bir daha imtahan verir. Bu isə tələbələrə həqiqətən də mənfi təsir göstərir, onlar həm maddi, həm də mənəvi cəhətdən zərərçəkmiş olurlar. Bu baxımdan düşünürəm ki, tədris yükünü azaltmaq lazımdır. Yalnız ixtisas fənlərini tədris etmək daha məqsədəuyğudur. Hətta qeyri- ixtisas fənlərini ləğv edib tədris müəddətini 4 il saxlasaq belə, o zaman qeyri ixtisas fənləri hesabına əldə etdiyimiz 1 ili tələbələrin öz ixtisasları üzrə professionallaşmasına sərf edə bilərik. Belə ki, onlar əlavə 1 ili öz ixtisasları üzrə təcrübədə istifadə edə bilərlər. Bütün bunlar tələbələrin əldə etdikləri bilik və bacarıqlara müsbət təsir edər, özlərini daha yaxşı inkişaf etdirər və öz sahələrində peşəkar mütəxəssis kimi formalaşa bilərlər”.

## Problem necə həll oluna bilər?

N.İsrafilov bildirib ki, bu gün təəssüfləndirici hallardan biri də işə qəbul zamanı imtahan verənlərin böyük bir qisminin müəyyən problemlərlə üzləşməsidir. Bunun səbəbi isə imtahana əsasən sırf ixtisasla bağlı sualların salınmasıdır ki, imtahan verənlər də ixtisasları ilə bağlı sualları cavablamaqda çətinlik çəkir, bunun üçün əlavə kurslara, təlimlərə cəlb olunmaq zərurəti qarşısında qalırlar: “Hansı fənlərin proqramdan çıxarılması bütün universitetlərdə ayrı-ayrılıqda təyin olunmalıdır. Hər bir universitetin professor-müəllim heyyəti ilə geniş müzakirələr aparılmalı, tələbə kontingenti arasında sorğu keçirilməli, ümumi məxrəcə gəlinməlidir ki, hansı ali məktəbdə hansı fənlər çıxarılmalı, hansılar qalmalıdır. Bu məsələdə bütün universitetlər üçün konkret olaraq eyni tələbi qoymaq vəziyyətdən çıxış yolu ola bilməz”.

## Dərs yükü orta məktəblərdə də ağırdır...

Ekspertin fikrincə, bu gün istər orta məktəblərdə, istərsə də ali məktəblərdə tədris planı yüklüdür və bu kimi iddialar birmənalıdır: “Fənlərin, dərslərin çox olması ilə bağlı narazılıqlar çoxdur. Ümid edək ki, məsələnin qaldırılması və yenidən gündəmə gətirilməsi yəqin ki, bu sahədə müəyyən dəyişikliklərin aparılmasına yardımçı olacaq”.

*Yeganə BAYRAMOVA*

*İdman*

## Aynur İmanova: İdman həm özünü, həm də Vətənini tanıtmaq üçün ən yaxşı vasitədir



“İdman insan həyatında önəmli yerə sahibdir. Fikrimcə, bu sahənin içində olmaq gözəl hissdir”.

Bu sözləri AZƏRTAC-a açıqlamasında qadın voleybolçulardan ibarət Azərbaycan millisinin və “Azərreyl” komandasının kapitanı Aynur İmanova deyib.

İdmanın asan və çətin tərəflərindən söz açan təcrübəli oyunçu gənc nəslə sağlam həyat tərzi sürməyi məsləhət görüb: “İdmanla məşğul olduğun zaman müəyyən zədələr alırsan. Lakin bu məqamlarda ruhdan düşməməlisən. Çünki uğura gedən yolda müxtəlif çətinliklərlə qarşılaşmaq normal haldır. Kiçik yaşlı uşaqlar bu sahəyə gəldikdən sonra tez-tez fikirlərini dəyişirlər. Bu vaxt valideyn və məşqçinin dəstəyi çox önəmlidir, ancaq məcburiyyət olmadan. Əgər gözəl qamət, sağlam həyat və ən önəmlisi, ölkənin bayrağını dünya meydanlarında dalğalandırmaq istəyirsənsə idmanla məşğul olmalısan. Bu peşə həm sənin, həm də yaşadığın ölkənin tanınmağına kifayət qədər təsir edir. Düşünürəm ki, bundan gözəl duyğu ola bilməz”.

35 yaşlı blokçu voleybolla məşğul olmağı təsadüfən seçdiyini bildirib: “Əslində, müəllimin yanına başqa idman növü üçün getmişdim. Lakin mənə voleybolla məşğul olmağı tövsiyə etdi. Özümü bu idman növündə gördüm və davam etdirmək qərarına gəldim. Yeni başladığım dövrdən indiyədək voleybolda çox şey, xüsusilə düşüncə tərzi dəyişib. Məsələn, valideynlər artıq oğlanlarla yanaşı, qızlarını da idmana yazdırırlar. Əgər idmançısansa, gündəlik qidalanma və yuxu rejiminə fikir verməlisən. Peşəkar səviyyədə inkişaf etmək üçün bunlara əməl etmək vacibdir”.

Milli komandanın üzvünün fikrincə, Azərbaycanda voleybolun səviyyəsi ildən-ilə artır: “Artıq bölgələrdə kiçik yaşlı uşaqlar arasında seleksiya işləri aparılır, məşqçilər üçün seminarlar təşkil edilir və maraqlı layihələr həyata keçirilir. Şəraitimiz isə ideal vəziyyətə gətirilib. Məşq zalları təmir olunub, eləcə də digər lazımi avadanlıqlar gətirilib. Bu da inkişafa müsbət mənada təkan verir. Yadıma gəlir, mən gənc olarkən Valeriya Məmmədova, Oksana və Yelena Porxomenko bacıları bizə voleybolun sirlərini öyrədirdilər. Bəzən nəyisə düzgün etmədiyimiz zaman əsəbləşirdilər. Hazırda 35 yaşım var və onların niyə bu cür hiss keçirdiklərini indi yaxşı anlayıram. Bilirəm ki, həmin şəxslər gənclərin inkişafı üçün çalışırdılar. Çıxış etdiyim komanda da gənc oyunçular var. Mən də onların səhvlərini özlərinə izah edirəm”.

Qeyd edək ki, Aynur İmanova 2016-cı ildə Azərbaycan millisinin heyətində Avropa Qızıl Liqasının qalibi olub.

## “Qızıl top” mükafatının sahibi bəlli olub

“France Football” nəşrinin təsis etdiyi “Qızıl top” mükafatının qalibi bəlli olub.

AZƏRTAC xəbər verir ki, İngiltərənin “Mançester Siti” komandasının ispaniyalı yarımmüdafiəçisi Rodri ilin ən yaxşı futbolçusu adına layiq görülüb.

Qadın futbolunda “Barselona” (İspaniya), kişilərdə isə “Real Madrid” (İspaniya) ilin ən yaxşı klubları adına sahib çıxıblar.

“Real Madrid” komandası mərasimi boykot etdiyi Paris şəhərindəki tədbirdə iştirak etməyib.

Qeyd edək ki, ötən il “Qızıl top”un sahibi ABŞ-ın “İnter Mayami” klubunun hücumçusu Lionel Messi olmuşdu.







## Azercell-in “Kitab Klubu” mütaliə həvəskarlarını bir araya gətirdi

Azercell “Kitab Klubu” layihəsi çərçivəsində Azərbaycanın ədəbi irsinin təşviqinə töhfə verməyə davam edir. Şirkət növbəti “Kitab Klubu”nda oxucularla məşhur simaları bir araya gətirdi. Ədəbiyyat axşamının qonaqları yazıçı Ceyhun Hidayətli, qiraətçi Xəzər Süleymanlı və ssenarist Azər Aydəmir oldular.

Tədbiri giriş sözü ilə açan Azercell-in Korporativ Ünsiyyət departamentinin direktoru Sona Abbasova iştirakçılara layihə haqqında məlumat verdi: “Klubumuz cəmiyyətdə, xüsusilə də gənclər arasında mütaliə mədəniyyətinin inkişafına xidmət edir. Azercell illərdir ki, mədəni irsimizin qorunub saxlanmasına yönəlik çoxsaylı təşəbbüslər həyata keçirir. 2017-ci ildən etibarən Azercell “Audiokitab” layihəsi çərçivəsində doğma dilimizdə rəqəmsal məzmunun zənginləşdirilməsinə töhfə verməklə yanaşı, ədəbi irsimizin dünyanın müxtəlif dillərində də yayımlanmasına və tanınmasına dəstək olur”.

Yüksək əhvali-ruhiyyə ilə keçən görüşdə Xəzər Süleymanlı tədbir iştirakçılarını Vaqif Səmədoğlunun yaradıcılığı ilə tanış etdi, onun sevilən şeirlərini səsləndirdi. Daha sonra qonaqlar müasir Azərbaycan ədəbiyyatı, son zamanlar geniş auditoriyanın diqqətini çəkmiş “Əqrəb” romanı və əsər əsasında ərsəyə gələn “Əqrəb mövsümü” serialı haqqında danışdılar.

Tədbirdə tanınmış simalarla yanaşı, Azercell-in “Kitab Klubu”nun üzvləri də iştirak edərək Cəfər Cabbarlının “Bookmate” və “Litres” platformalarında yerləşdirilmiş “Sevil” və “Almaz” pyeslərindən parçalar səsləndirdilər.

Azercell Telekom MMC-in fəaliyyəti haqqında ətraflı məlumat əldə etmək üçün:

Azercell - Sənə yaxın gələcək | Azərbaycanın lider mobil rabitə operatoru


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4832
Sifariş: 2506
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli